# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 31 (3447) Cümə axşamı / 11-17 avqust 2022-ci il Qiyməti 40 qəpik


# Xarici ticarətdə milli valyutalara keçid

***Məlum olduğu kimi, Türkiyə və Rusiya rublla ticarətə keçmək barədə razılığa gəlib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Soçidə bu xüsusda həmkarı Vladimir Putinlə razılıq əldə edildiyini bildirib. Rusiya Baş nazirinin müavini Aleksandr Novak isə öz növbəsində qeyd edib ki, prezidentlər Rusiya qazının Türkiyəyə tədarükünü rublla hissə-hissə ödəməyə başlamağa razılaşıblar. Dövlət başçıları Soçidəki danışıqların yekunlarına görə, ticarətin həcmini artırmaq, iqtisadiyyat və energetika sahələrində yarı yolda görüşmək, o cümlədən nəqliyyat, ticarət, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlıq üçün addımlar atmaq barədə razılığa gəliblər. Qeyd edək ki, Rusiya və Türkiyə uzun müddətdir dollar asılılığından xilas olmaq üçün cəhd edirlər. Hazırda xeyli güclənən rus rublu bunun üçün yeni imkanlar açıb. Eyni zamanda ticarətin rublla həyata keçirilməsi dollar vasitəsilə ABŞ-ın Türkiyə və Rusiya iqtisadiyyatlarına təsir imkanlarını zəifləddir.***




Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanla da ticarətdə Rusiya milli valyutalarla dövriyyəni əhəmiyyətli dərəcədə artıra bilib. Ekspert hesablamalarına görə, Rusiya ilə Azərbaycan arasında bütün ticarətin, təxminən, 30 faizi rublla həyata keçirilir və bütövlükdə Rusiya-Azərbaycan iqtisadi münasibətlərinin arxitekturası xarici neqativ amillərə o qədər də həssas deyil, qeyri-standart vəziyyətlərə tez uyğunlaşır. Onu da xatırladaq ki, "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannaməyə əsasən, Rusiya və Azərbaycan milli qanunvericilikləri və kredit-pul siyasətləri çərçivəsində kredit-bank təşkilatlarının fəaliyyətinə, maliyyə institutlarının əməkdaşlığının inkişaf etdirilməsinə, maliyyə-sənaye qrupları, istehsal və digər təşkilati-təsərrüfat strukturları da daxil olmaqla birgə müəssisələrin yaradılmasına yardım göstərməyə hazırlıqlarını ifadə edirlər.

Tərəflər qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadəyə, bank kartlarına birgə xidmət daxil olmaqla ödəniş sistemlərinin qarşılıqlı uyğunluğuna, eləcə də iki ölkənin bankları arasında birbaşa müxbir münasibətlərin inkişaf etdirilməsinə imkan yaratmalıdırlar. Bu istiqamətdə iş gedir. Ölkələrimiz arasında ikitərəfli ticarəti həyata keçirən bankların üzərinə isə məlumatların ötürülməsi və ödənişlərin həyata keçirilməsi üçün yeni kanallar tapmaq tapşırılıb. Rublla yanaşı, Azərbaycan manatının da qarşılıqlı ticarətdə istifadə həcmi artır.

Eyni fikirləri Türkiyə barədə də demək olar. Belə ki, Azərbaycan manatı artıq Türkiyə Mərkəzi Bankı tərəfindən "Ticarətə aid xarici valyutalar" siyahısına əlavə edilib. Türkiyə Mərkəzi Bankının məlum qərarından sonra manatın regional valyutaya çevrilmə şansı da əhəmiyyətli dərəcədə yüksəlib. Bəs, görəsn, Azərbaycan və Türkiyənin, eləcə də Azərbaycan və Rusiyanın tamamilə dollardan imtina edərək müvafiq olaraq ticarətdə lirəyə, rubla keçməsi nə dərəcədə realdır? Azərbaycan iqtisadiyyatı buna tab gətirə bilərmi? Ümumiyyətlə, xarici ticarətimizdə bu valyutaların payı maksimum nə qədər olmalıdır?

Məsələni hafta.az-a şərh edən iqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, Azərbaycanın xarici ticarətdə Türkiyə və Rusiya ilə müvafiq olaraq lirə, rubl vasitəsilə ticarət etməsində ölkəmiz üçün heç bir risk yoxdur: "Yəni, indi də Azərbaycan bir çox şirkətlərdən Rusiyadan mal alanda rublla müqavilə bağlanır. Burada hər hansı problem yoxdur. Həmin valyutalarla ticarətin aparılması kifayət qədər realdır.

Xüsusilə Rusiya ilə biz rublla alış-verişə artıq məcburuq. Rusiyadan əsasən xammal, material, taxıl və digər ərzaq məhsulları alırıq. Rusiyaya hazırda dollar, avro ödəmək getdikcə probleme çevrilir. Avropa, Amerika bankları ya vəsaiti geri qaytarırlar, ya da bloka salırlar. Ona görə də güman edirəm ki, yaxın 6 ayda Rusiyadan aldığımız malların ödənişini getdikcə daha sürətli rublla həyata keçirəcəyik. Yəni, əgər Rusiyadan mal almaq istəyiriksə, ödənişi rus rublunda ödəmək məcburiyyətində qalacağıq".

> *"Ölkəmiz rahat şəkildə bu dövlətlərlə onların valyutalarında ticarət edə bilər*

> *Bu gün dünyada həmin ölçü vahidini əvəz edən göstərici varlıq ABŞ dollarıdır*

Ekspert, həmçinin onu da qeyd edib ki, Dövlət Gömrük Komitəsinin məlumatına görə, Azərbaycanın xarici ticarət dövriyyəsinin 11,7 faizi Türkiyənin payına düşür: "Eyni zamanda, ixracın 10 faizi Türkiyənin payına düşür. Qeyri-neft məhsulları ixracında Türkiyənin payı 29,4 faiz, Rusiyanın payı isə 26,2 faizdir. Ümumiyyətlə isə ixracın 2,1 faizi Rusiyadır. İdxala gələndə isə ölkədə idxal olunan məhsulların 18,6 faizi Rusiyadan, 16, 6 faizi də Türkiyədən gəlir. Son 6 ayda ümumi ticarət dövriyyəmizdə isə Türkiyənin payı 11,7 faiz, Rusiyanın payı isə 6,3 faizdir. Təqribən xarici ticarət dövriyyəmizdə iki ölkənin ümumi payı 18 faizdir. Amma hal-hazırda təbii ki, demək olmaz ki, 18 faizin hamısı dollarla və ya avroyla, və ya lirə və rubladır. O ki qaldı sözügedən ölkələrlə müvafiq olaraq lirə və rublla ticarət edilməsinə, bir daha vurğulayıram ki, bu məsələdə hansısa problem yoxdur. Ölkəmiz rahat şəkildə bu dövlətlərlə onların valyutalarında ticarət edə bilər. Sadəcə, bu məsələdə ölkələrarası, Mərkəzi Banklar arası müqavilələr olmalıdır ki, şirkətlər ticarət edəndə rahat şəkildə həmin vəsaiti dəyişdirə bilsinlər".

Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Fuad İbrahimli isə bildirib ki, nəzəri cəhətdə milli valyuta ilə hər hansı ticarəti aparmaq mümkündür: "Amma bir şeyi də nəzərə almaq lazımdır ki, 70-ci illərin əvvəllərində Yamayka danışıqlarından sonra dünyada üzən məzənnə siyasəti formalaşıb. Və istənilən valyutanın məzənnəsi formalaşır, bu müəyyən iqtisadi göstəricilərə görə də digər valyutalara nisbətdə belə deyək dalğalanır. Əlbəttə ki, müəyyən bir dövrdə bu prosesi həyata keçirmək olar. Ancaq hər bir halda vahid bir ölçü vahidi lazımdır. Bu gün dünyada həmin ölçü vahidini əvəz edən göstərici varlıq ABŞ dollarıdır. Bu gün lirənin məzənnəsinin müəyyən edilməsi dollara uyğun olaraq aparılır. Və yaxud rus rublu. Bu gün rus rublunu ən azından Azərbaycan manatına nisbətini və yaxud Azərbaycan manatının rus rubluna nisbətini müəyyən etmək üçün mütləq şəkildə ABŞ dollarından nisbəti müəyyən edilir. Yəni, bu ölçü vahididir. Belə olduğu halda məcazi mənada lirə və ya rublla ticarəti aparmaq mümkün olacaq. Bunun Türkiyə iqtisadiyyatına nə dərəcədə ziyanı olub-olmadığını kənara qoyuruq. Və ya dünyada dolları ləğv etdilər, başqa ölçü vahidi müəyyənləşdirildi. Yenə də həmin ölçü vahidi əsas olacaq. Əslində bu söhbətlərin hamısı siyasi çıxışlardır. Azərbaycanın isə öz xarici siyasəti var, xarici dövriyyəsini də müasir institusional qaydalara uyğun aparır. Hər hansı "oyunlarda" iştirakçı deyil".

MÜSAHİB

## Qarabağ qaziləri ən yüksək Prezident təqaüdü alırlar



**Musa Quliyev,**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

***"Həftə içi" qəzetinin müsahibi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevdir. Musa müəllimlə ölkədə həyata keçirilən sosial siyasəti, şəhid ailələri, müharibə əlillərinin rifahının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən atılan addımları, hökumətin bahalaşmaya qarşı həyata keçirdiyi tədbirləri və digər məsələləri müzakirə etmişik.***

*Birinci Qarabağ müharibəsi qazilərinin isə 2024-cü ilə qədər hamısının mənzillə təmin olunması barədə cənab Prezident göstəriş verib və hal-hazırda bu proses davam edir*


Səh. 5


MÜSAHİB



**Gəray Əsədov,**
keçmiş tabor komandiri, istefada olan mayor

■ Azərbaycan ordusunun Qarabağda həll edə bilməyəcəyi problem qalmayıb

■ Ordumuzun xüsusi birləşmələri operativ və çevik şəkildə və əsasən düşmənin arxasında işləyir

■ 1994-cü ilin yanvarındakı gərgin əməliyyatlar zamanı nə Ermənistan, nə də Rusiya Buzdux dağının Azərbaycanın nəzarətinə keçməsini istəmir


Səh. 3


GÜNÜN FOTOSU...




**Azərbaycan tekavando millisinin üzvü Fəridə Əzizova İslam Oyunlarının qalibi olub**

GÜNÜN SİTATI

> *"Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycan çox böyük işlər görüb"*



**Ramtan Lamamra,**
Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri

KARİKATURA




**Daim irəli**

## Rusiya Qərbin Zəngəzur məsələsinə qarışmasını istəmir

**Tofiq Zülfüqarov,**
Azərbaycanın sabiq baş diplomatı

Moskvanın Qarabağ məsələsinə təsirini Azərbaycan-Türkiyə müttəfiqliyi neytrallaşdırır.


Səh. 3


STATİSTİKA



**■ İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə və TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinə daxil olmuş, habelə "YAŞAT" Fondu tərəfindən Agentliyə yönləndirilmiş müraciətlərə əsasən 2022-ci ilin ilk 6 ayı ərzində Vətən müharibəsi iştirakçıları və şəhid ailəsi üzvlərinə 73 647 tibbi xidmət göstərilib.**

İcbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində göstərilən tibbi xidmətlərin 64 924-ü ambulator, 8 723-ü isə stasionar şəraitdə göstərilib. Tibbi xidmət almış 7 362 şəxsin 6 572 nəfəri müharibə iştirakçısı, 790 nəfəri isə şəhid ailəsi olub.




Səh. 6


## Müharibədən bezənlər

PREZİDENTİN İŞ GÜNÜ

## Prezident İlham Əliyev türkiyəli həmkarı ilə görüşüb



**Konya şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında görüş olub. Prezident İlham Əliyev V İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminə dəvətə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür etdi.**

Türkiyənin dövlət başçısı da öz növbəsində dəvəti qəbul edib, tədbirdə iştirak etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı, eyni zamanda, İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Rəcəb Tayyib Ərdoğan Qarabağdakı son hadisələrlə əlaqədar bir daha Türkiyənin dəstəyini ifadə etdi və şəhidlərlə bağlı başsağlığı verdi.

Dövlətimizin başçısı dəstəyə və başsağlığına görə təşəkkür etdi. Görüşdə bölgədə postmünaqişə dövrü ilə bağlı fikir mübadiləsi aparıldı, eyni zamanda, iqtisadi, enerji, nəqliyyat və hərbi sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

## "Ermənistanın bir sıra qeyri-konstruktiv yanaşmaları var"



**"Ötən ay ilk məcburi köçkünlərimizin Zəngilan rayonunun Ağalı kəndində qayıdışı baş verdi. Bu, Böyük Qayıdışın ilk mərhələsinin başlanğıcıdır".**

Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri, Əlcəzair Prezidentinin xüsusi nümayəndəsi Ramtan Lamamra ilə görüşdən sonra keçirilən mətbuat konfransında xarici işlər naziri Ceyhun Bayramov bildirib.

Ceyhun Bayramov deyib ki, Azərbaycanın Ermənistana təklif etdiyi sülh gündəliyi, iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi, kommunikasiyaların açılması, sülh müqaviləsi ilə bağlı rəsmi Bakının təklifləri barədə də əlcəzairli həmkarını məlumatlandırıb: "Ermənistanın üçtərəfli bəyanatın icrası istiqamətində bir sıra qeyri-konstruktiv yanaşmaları barədə də Ramtan Lamamraya məlumat verdim. Azərbaycan qonşu ölkələrlə normal münasibətlərin formalaşmasına tərəfdardır. Qarşılıqlı surətdə sərhədlərin toxunulmazlığı prinsipi əsasında münasibətlərin normallaşdırılması istiqamətində irəliləyə bilərik".

## Azərbaycanda medianın inkişafı üçün şərait var



**Azərbaycanda medianın zəruri inkişafı üçün şərait var. Bnu, baş prokuror Kamran Əliyev "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" mövzusunda keçirilən konfrans zamanı bildirib.**

Onun sözlərinə görə, müasir cəmiyyətlərin inkişafını medianın inkişafı olmadan düşünmək olmaz.

"Tam əminliklə deyə bilərik ki, Azərbaycanda media artıq hakimiyyətin 4-cü qoludur. Vətən müharibəsi dövründə bizim jurnalistlərimiz birbaşa cəbhə bölgəsində fəaliyyət göstərdi,eyni zamanda Azərbaycanın haqlı mübarizəsini dünyaya çatdırdılar", -K.Əliyev əlavə edib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Laçın Azərbaycana təhvil verilir

***Azərbaycanın Laçın istiqamətində erməni hərbi təxribatlarına qarşı apardığı uğurlu əməliyyat, artıq Ermənistanın sülhə, barışığa məcbur edilməsi istiqamətində yeni mühüm bir mərhələnin yetişdiyini ortaya qoyur. Məlumdur ki, Azərbaycan ermənilərin Laçın dəhlizindən çıxarılmaları və silahlı ermənilərin əraziləri tərk etmələri üçün onlara avqustun 25-dək vaxt verib. Buna baxmayaraq, erməni separatçılar yenə də silahlanır, ərazilərimizi işğaldan azad etmək əvəzinə, yalançı hay-küy qaldırmaqda davam edirlər. Bu müstəvidə Rusiya sülhməramlılarının, eləcə də regiondakı növbəti oyunçu olan Avropa İttifaqının da üzərinə məsuliyyət düşür.***



## Gündəm

Bu yaxınlarda sülhməramlı rəhbərlərinin erməni separatçıları ilə Xankəndidə görüşləri keçirilib. Həmin görüşdə hansı detalların müzakirə olunduğu tam aydın olmasa da, fotoşəkillərdə rus sülhməramlılarının ermənilərlə görüşündə masaya Azərbaycan, Ermənistan, Rusiya bayraqlarının olduğu görüntüsü diqqət çəkib. Əgər bu, reallığı əks etdirirsə, nədən xəbər verir?

■ **Politoloq Rəşad Bayramov hafta.az-a bildirib ki, əgər Rusiya sülhməramlılarının rəhbərliyi Xankəndidə görüşdə separatçı rejimin qondarma bayrağını deyil, Azərbaycanın bayrağını masaya gətiribsə, bu, Azərbaycan tərəfinin Rusiya ilə apardığı danışıqların, sülhməramlıların fəaliyyətinə dair iradların müsbət məcrada inkişafı kimi dəyərləndirilə bilər.**

Bu, onu deməyə əsas yarada bilər ki, Rusiya tərəfi indiyədək erməniləri dəstəkləyən fəaliyyətinə görə Azərbaycanın narazılıqlarından dərs çıxarıb və onun vasitəçiliyindən imtina ediləcəyini anlayıb, narahatdır".

Politoloq bildirir ki, Ermənistan-Azərbaycan arasında gedən danışıqlarda digər oyunçu Avropa İttifaqıdır və Şarl Mişelin bəyanatına görə, bu yaxınlarda Prezident İlham Əliyevlə Paşinyanın növbəti görüşü nəzərdə tutulur. O, hesab edir ki, Rusiya məhz indiki mərhələdə bu prosesdən kənarda qalmamaq üçün özünə belə bir "protokol" tətbiq edə bilər. R.Bayramov bütün hallarda Laçın istiqamətində gedən prosesləri dəyərləndirərkən Azərbaycanın maraqları müstəvisində müsbət irəliləyişlərə diqqət çəkib:

"Son erməni təxribatı nəticəsində Azərbaycanın əks-cavab olaraq həyata keçirdiyi əməliyyat ermənilərin ağlını başına yığmaları üçün onlara bir imkan yaratdı. Emənilərin Laçın dəhlizi ətrafı, o cümlədən digər kəndləri boşaltmalı olduqlarını anlamaları müsbət haldır. Söhbət erməni xislətindən gedirsə, onların sonadək necə davranacaqlarını söyləmək mümkün deyildir. Düzdür, həm Ermənistan rəhbərliyi, həm separatçı rejimin rəhbərliyi tərəfindən Laçında evlərin boşaldılması ilə bağlı çağırışlar var. Ayrı-ayrı erməni siyasətçilər evlərin yandırılması ilə bağlı çağırışlar da ediblər. Ona görə də ermənilərin ərazilərimizi tərk edərkən indi yaşadıqları evləri, meşələri yandırmayacaqları, Kəlbəcərdə etdikləri kimi, həmin ərazilərə çoxlu sayda minalar basdırmayacaqları da məlum deyil və hər hansı zəmanət də yoxdur".

Politoloq bu prosesdə Rusiyanın mövqeyində hər hansı dəyişiklik etməsini də istisna etməyib:

"Rusiya və vasitəçilik missiyası ilə çıxış edən Avropa İttifaqı başa düşür ki, əldə edilən razılaşmaların icrasını uzun müddət həyata keçirmədikcə, bu cür hərbi toqquşmalar baş verəcək. Onu da anlayırlar ki, danışıqlar prosesində hər hansı bir irəliləyişə nail olunmaması Azərbaycan tərəfinin istər Rusiya, istərsə də Avropa İttifaqının vasitəçiliyi ilə həyata keçirilən danışıqlarda geri çəkilməsinə gətirib çıxara bilər. Əgər ortada nəticə yoxdursa, yenidən uzun-uzadı danışıqlar aparmağa ehtiyac qalmır. Ona görə də Rusiya və Avropa İttifaqı indiyədək əldə olunan razılaşmalardan, heç olmasa, hansılarınsa həyata keçirilməsində qətiyyətli olacaqlar. Bu onların da maraqlarına xidmət edir.

Rusiya bir tərəfdən, Avropa İttifaqının vasitəçiliyi ilə aparılan danışıqlarda əldə olunan razılaşmalara özünün proseslərdən kənarlaşdırılması və nəticə etibarilə Cənubi Qafqazda təsir imkanlarını itirməsi kontekstindən baxır. Avropa İttifaqı da başa düşür ki, hazırda onun vasitəçiliyi ilə danışıqlar ona görə baş tutur ki, son iki il ərzində Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlarda hər hansı irəliləyişə nail olunmayıb".



**Rəşad Bayramov,**
politoloq



**Ülvi Qədir,**
hərbi ekspert



**Qabil Hüseynli,**
politoloq

> *Laçının boşaldılmasına nəzarəti birbaşa sülhməramlı kontingent həyata keçirəcəksə, cinayətlərin qarşısının alınmasına da nəzarət etməlidir*

> *Bundan sonra "Laçın dəhlizi" sözü istifadə olunmayacaq*

> *Son dövrlərdə Rusiya sülhməramlıları erməni silahlılarının çıxarılmasında maraqlı kimi görünməyə başlayıblar*

Politoloq hesab edir ki, Avropa İttifaqı bu məqamdan istifadə edərək konkret müsbət addımların atılmasında maraqlı olacaq. "İndiki mərhələdə "top" Ermənistan tərəfdədir. Azərbaycan ermənilərin avqustun 25-dək ərazilərimizdən çıxarılması ilə bağlı öz sözünü, bəyanatını verib. Bu müddət ərzində ermənilər həmin əraziləri boşaldacaqlarsa lap yaxşı, boşaltmayacaqlarsa, növbəti hərbi əməliyyatların keçirilməsi üçün Azərbaycana növbəti imkan vermiş olacaq.

Azərbaycan erməni xəstəliyini yaxşı bilir, bundanəvvəlki təcrübə də onu göstərir ki, bu millət Laçında minaların basdırılması, evlərin yandırılması ilə bağlı konkret əməllər törədə bilər. Ona görə də məsələ həmin ərazilərə nəzarət edən Rusiya sülhməramlıları ilə ciddi şəkildə müzakirə olunmalıdır. Laçının boşaldılmasına nəzarəti birbaşa sülhməramlı kontingent həyata keçirəcəksə, cinayətlərin qarşısının alınmasına da nəzarət etməlidir. Əks halda, baş verə biləcək erməni cinayətlərinin məsuliyyəti sülhməramlıların üzərində qalacaq".

■ **Hərbi ekspert Ülvi Qədir hafta.az-a bildirib ki, sərhədboyu düşmənin yerləşdiyi ərazilərə nəzarət etmək, irəliyə getmək üçün çox önəmlidir.** "Azərbaycan Ordusunun "Qisas" əməliyyatında strateji yüksəklikləri ələ keçirməsi gözəl taktiki gedişdir. Bununla da Azərbaycan Ağdərə, Xocavənd, Əsgəran və sülhməramlıların dairəsində olan digər ərazilərə birbaşa nəzarət edə biləcək. Bundansonrakı zamanda da bizim belə əməliyyatlarımız olacaq. 10 Noyabr Bəyanatından sonra, bir çox adam ruhdan düşdü ki, artıq rus hərbçiləri Qarabağa gəlibsə, nəzarəti tam əlimizə ala bilmərik. Müharibə birtər-bitməz Fərruxu, sonra müəyyən başqa yüksəklikləri məhz Rusiya sülhməramlılarının orada olduğu zaman nəzarətə götürdük. Deməli, Azərbaycanı öz hədəflərindən heç nə yayındıra bilməyəcək". Ü.Qədir bildirir ki, "Laçın dəhlizi" illərdən bəri həm Azərbaycan, həm dünya mediasında ən çox səslənən ifadə olsa da, onun da dilimizdən çıxmasına sayılı günlər qalıb.

"Yeni bir yol da çəkilib. Azərbaycan tərəfi yolu təhvil verməyə hazırdır, Ermənistan tərəfi isə vaxtı uzatmaq istəyir. Avqustun 25-dək ərazi boşaldılmalıdır. Millətçidüşüncəli ermənilər Laçına dəstək şüarları ilə aksiyalar keçirirlər. Bunun heç bir əhəmiyyəti yoxdur. Təbii ki, ermənilər də oradan çıxacaq və əraziyə Azərbaycan birbaşa nəzarət edəcək. Bundan sonra "Laçın dəhlizi" sözü istifadə olunmayacaq".

Ü.Qədir hesab edir ki, müharibədənsonrakı dövrdə üç rayonumuz döyüşsüz boşaldılan zaman paralel olaraq Azərbaycan əsgərlərinin də ora yerləşdirilməsi baş vermədiyi üçün düşmən tərəfi bizim meşə təsərrüfatımıza, evlərimizə böyük ziyanlar vurdu. Ermənilərin eyni hərəkətləri bu gün də təkrarlana bilər.

"Laçın boşaldılandan sonra heç kəs zəmanət verə bilməz ki, ermənilər meşələri, evləri yandırmayacaq, orada minalar basdırılmayacaq".

Erməni təxribatlarının məhz sülhməramlıların nəzarəti altında olan ərazilərdə baş verdiyini deyən Ü.Qədir düşmənin rusların Qarabağda öz vəzifələrini düzgün icra etmədiyinə görə bu addımları atdığını vurğulayır.

Onun sözlərinə görə, 1992-1993-cü illərdə Kəlbəcərdə Zod yolu və Laçın dəhlizi ermənilərin əraziyə daxil olması, hərbi təxribatlar üçün əlverişli idi. 44 günük müharibədə hər iki yol düşməndən təmizlənib. Faktiki olaraq hazırda "Laçın dəhlizi" dediyimiz ərazinin Rusiya sülhməramlılarının nəzarətində olmasına baxmayaraq, Zabux kəndindən ermənilərin köçməsi bir çox mühüm mətləbdən xəbər verir.

"Ermənilər ötən yaxın tarixdə SSRİnin dağılması ilə ölkədə yaranan hərcmərclikdən istifadə edərək, torpaqlarımızı işğal etdilər. Ermənistan tərəfi Azərbaycan Ordusu ilə Rusiya sülhməramlılarını qarşı-qarşı qoymaq istəyir. Azərbaycan bu istiqamətdə öz siyasətini düzgün qurub və düşünmürəm ki, düşmənin niyyətləri yerinə yetsin. Ordumuz hər gün yenilənir, inkişaf edir. Ermənilər nə qədər revanşist iddialarla çıxış etsələr də, ordusu heç nəyə qadir deyil. Ermənilər Azərbaycan ərazilərində müharibə aparmaq gücündə deyil".

■ **Politoloq Qabil Hüseynli hafta.az-a bildirib ki, açına alternativ yolun çəkilişindən sonra, Laçın dəhlizinin boşaldılması gündəmdir və görünən odur ki, ermənilər gərginlik yaratmaqla vaxtı uzatmağa cəhd edir.**

Q.Hüseynli bildirir ki, artıq Laçının boşaldılması ilə bağlı qeyri-rəsmi məlumatlar yayılır, amma hələ boşldılmayıb. Sülhməramlılar isə bir çox hallarda fəaliyyətsizdir və missiyalarını yerinə yetirə bilmirlər.

"Son dövrlərdə Rusiya sülhməramlıları erməni silahlılarının çıxarılmasında maraqlı kimi görünməyə başlayıblar. Yaxşı başa düşürlər ki, erməni silahlı qüvvələrinin ərazilərdən çıxması onlar üçün rahat, yeni fəaliyyət yolu açacaq, daha çox hakimiyyətə sahiblənirlər".



Politoloq ermənilərin öz mənfur iddialarından əl çəkmədiyini önə çəkib.

"Ermənilər yenə də söyləyirlər ki, Laçın dəhlizinə alternativ yol açılmayınca, əraziləri boşalda bilməzlər.

Mürəkkəb hadisələr baş verir. Hər halda, Rusiya proseslərlə bağlı təmkinli mövqe sərgiləyir. Əslində, Putin Təhlükəsizlik Şurasının iclasını çağırdı və orada müəyyən fikirlər söylədi, mediada Azərbaycan əleyhinə müəyyən hücumların şahidi olduq".

✍ *Tahirə Qafarlı*

# "Ermənilər Buzdux dağına 4 min canlı qüvvə toplamışdı..."

**1993-1994-cü illərin qış aylarında 3000-3500 metrədək yüksək dağ şəraitində keçirilmiş Murovdağ əməliyyatının iştirakçısı, keçmiş tabor komandiri, istefada olan mayor Gəray Əsədovla hafta.az üçün bu dəfəki söhbətimizdə Milli Ordumuzun son uğurlu antiterror əməliyyatının nəticələri və əhəmiyyəti, həmin əməliyyatlar zamanı azad edilmiş strateji yüksəkliklərdə I Qarabağ savaşı zamanı keçirilmiş döyüşlər, bundan sonra Qarabağda ordumuzu gözləyən strateji hədəflər və s. barədə danışdıq.**



**Gəray Əsədov,**
keçmiş tabor komandiri,
istefada olan mayor

## Müsahib

***- Gəray bəy, I Qarabağ savaşında döyüşlərdə və atəşkəs dövründəki zabit kimi hərbi xidmətiniz zamanı kifayət qədər təcrübə qazanmış bir peşəkar hərbçi kimi Milli Ordumuzun Qarabağda apardığı son antiterror əməliyyatlarını necə dəyərləndirirsiz?***

- Kifayət qədər peşəkar və yüksək səviyyədə keçirilən əməliyyatlar oldu. Azərbaycan ordusu çevik antiterror əməliyyatı çərçivəsində 3 strateji yüksəkliyi və ümumilikdə 164 kvadrat kilometrlik ərazini qanunsuz erməni birləşmələrindən azad etdi. Öncə Qarabağ silsiləsindəki əsas zirvələr azad olundu... O istiqamətdə Laçın dəhlizinə, Ermənistanın Gorus şəhəri istiqamətinə, eləcə də Şuşa və Xankəndinə nəzarət etmək üçün iki əsas yüksəklik var. Kəlbəcər tərəfdən gələndə sağ istiqamətdə 1918 metr hündürlüyü olan Hoçaz dağıdır, sol tərəfdə isə 2295 metrlik Sarıbaba dağıdır. Sol tərəfdə xeyli şimala doğru yerləşən 2679 metrlik Qırxqız yüksəkliyi də Laçın dəhlizi ilə yanaşı, Xankəndi şəhəri və Xocalı rayonuna nəzarət üçün vacibdir.Odur ki, ordumuzun Sarıbaba və Qırxqız yüksəkliklərini azad etməsi böyük uğurdur...

Bir tərəfdən Kəlbəcərin Yanşaq və Bağırlı, digər tərəfdən isə Ağdaban və Çayqovuşan kəndlərinin yaxınlığında yerləşən 2374 metrlik strateji Buzdux dağının azad olunması da çox böyük hərbi-siyasi əhəmiyyətə malikdir. Yəni Buzdux kimin əlindədirsə, o, Tərtər-Ağdərə-Kəlbəcər magistral yolunu tam nəzarətə götürür... Bundan sonra keçmiş Dağlıq Qarabağın qalan əraziləri ətrafındakı həlqə tamamilə daralır...

***- Adı çəkilən yüksəkliklər birinci Qarabağ savaşında da xüsusi strateji əhəmiyyət kəsb edib və bir neçə dəfə əldən-ələ keçib. Bu mövzuda yaddaşınızda nələr qalıb?***

- Yadımdadır ki, Laçın şəhəri və ətraf kəndlərin işğalından sonra 1992-ci ilin sentyabrında erməni işğalçılarından azad edilən Sarıbaba yüksəkliyi 1992-ci il noyabrın 16-da yenidən işğal olunmuşdu. Həmin dövrədək mənim də iştirakçısı olduğum döyüşlərdə Milli Ordumuz həmin yüksəkliyi qoruyub saxlamışdı. Təəssüf ki, sonradan müəyyən qüvvələrə bağlı bəzi ordu birləşmələrimiz Sarıbabanı tərk etdiyindən digər qüvvələr bu yüksəkliyi müdafiə edə bilmədi. Ermənistan ordusu üçün Hoçaz kimi, Sarıbaba da Laçın dəhlizinə, ayrıca Şuşa-Laçın-Gorus avtomobil yoluna nəzarət üçün çox vacib idi... Dağın bir üzü Qaragav deyilən yerdi, Şuşanın Sarıbaba, Göytala, Cəmillər, İmanqulular kəndləri, digər tərəfində isə Laçının Bülüldüz, Xırmanlar, Tığık-1, Tığık-2, Fingə və s. kəndləri yerləşir. Qarabağ dağ yaylasına aid olan Qırxqız dağının qərb yamacında isə Laçın rayonunun Fərraş, Çorman, Şamkənd, Nağdalı və s. kəndləri var. 1990-cı illərdə həmin kəndlərdə də ordumuzun gərgin döyüşləri olub...

***- Bildiyimizə görə, 1993-1994-cü illərdəki Murovdağ əməliyyatında Buzdux yüksəkliyi ətrafındakı döyüşlərdə də iştirak etmisiz...***

- Bəli, doğrudur. Milli Ordumuzun bu günlərdə keçirdikləri uğurlu əməliyyatları sayəsində qanunsuz erməni birləşmələrindən azad etdiyi 2374 metrlik Buzdux yüksəkliyi Birinci Qarabağ savaşında hərbi əməliyyatların ən qızğın nöqtələrindən biri olmuşdu. Ermənistanın keçmiş prezidentləri Robert Köçəryan və Serj Sərkisyanın da yazı və müsahibələrində həmin yüksəkliyin adı çəkilir. O vaxtkı döyüşlərin qızğın çağında hətta Rusiya prezidenti Boris Yeltsin də Heydər Əliyevə zəng edib ki, Azərbaycan ordusu Buzdux yüksəkliyindən geri çəkilsin. Yadımdadır ki, Murovdağ əməliyyatı ilə bağlı istintaq materiallarında erməni komandirlərin bizim kəşfiyyat tərəfindən tutulmuş radiodanışıqlarında qeyd olunub ki, Beyləqan istiqamətindəki bir moto-atıcı alay və üstəgəl 300 nəfərlik Dizak dustaqlar qrupundan ibarət qrup Kəlbəcər rayonunun Ağdaban-Çayqovuşan kəndləri ərazisinə göndərilsin.

Ağdaban, Çayqovuşan kəndləri isə Buzduğ dağının dibindədir... Ümumiyyətlə, o vaxtkı əməliyyat məlumatlarımıza görə, ermənilər Buzdux ətrafına 4 min nəfərə yaxın canlı qüvvə toplamışdı. Yəni demək istəyirəm ki, 1994-cü ilin yanvarındakı gərgin əməliyyatlar zamanı nə Ermənistan, nə də Rusiya Buzdux dağının Azərbaycanın nəzarətinə keçməsini istəmir və maksimum çalışırdılar ki, həmin yüksəklik erməni qüvvələrinn nəzarətində qalsın. Yadınızda, ötən ilin sentyabrında da sizinlə də Rusiya "sülhməramlı" kontingentinin öz məsuliyyət zonalarına aid xəritələrində Buzdux dağını xüsusi olaraq göstərmələri və əslində həmin yüksəkliyin Azərbaycanın nəzarətində olmasının vacibliyi haqda söhbətimiz olmuşdu... Bu baxımdan həmin istiqamətdə döyüşlərdə olmuş bir keçmiş hərbçi komandir olaraq mənim üçün də maraqlıdır ki, Rusiya tərəfi Azərbaycan tərəfinin hərbi təzyiqi ilə yanaşı, hansı siyasi-diplomatik təzyiqi ilə də üzləşib ki, Buzdux kimi yüksəkliyin öz məsulliyyət zonalarından çıxarılmasına razılıq verib...

***- Sizcə, Yuxarı Qarabağın qalan hissəsini, o cümlədən Xankəndi və Xocalını tam nəzarətə götürmək üçün bundan sonra qarşıda hansı strateji yüksəklik və məntəqələrin azad edilməsi vəzifəsi dayanır?***

- Hesab edirəm ki, öncə hazırda əlimizdə olan 2020-ci ilin 44 günlük müzəffər savaşında şəhid və qazilərimizin canı-qanı bahasına azad edilmiş Talış-Suqovuşan istiqamətindən Sərsəng su anbarına doğru yol açmaq həmin istiqamətdəki hayların "Tonaşen" adlandırdıqları Təpəkənd, "Levonarx" adlandırdıqları Göyarx, Lüləsaz("Akopkamari") məntəqələrini azad edib Sərsəng su anbarını nəzarətə götürmək gərəkdir. Tərtərçayın axını istiqamətində Sərsəngin sol sahilində Murovdağ silsiləsinin ətəyindəki "Aterk" adlanan Həsənriz, İmarət Qərvənd, Kərəmli, Zərdəxaç və s. kəndləri də götürüldükdən sonra Tərtər-Kəlbəcər yolu bizim üçün tamamilə açılacaq...

> *Azərbaycan ordusunun Qarabağda həll edə bilməyəcəyi problem qalmayıb*

> *1994-cü ilin yanvarındakı gərgin əməliyyatlar zamanı nə Ermənistan, nə də Rusiya Buzdux dağının Azərbaycanın nəzarətinə keçməsini istəmir*

> *Ordumuzun xüsusi birləşmələri operativ və çevik şəkildə və əsasən düşmənin arxasında işləyir*

***- Sərsəng su anbarının yaxın gələcəkdə azad olunması üçün bu günlərdə Azərbaycan ordusunun keçirdiyi antiterror əməliyyatı nəticəsində Kəlbəcər rayonunun hayların "Drmbon" adlandırdıqları Heyvalı kəndindəki artilleriya hərbi hissəsi və azı bir post məhv edilməsi və eyni rayonun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilməsi nəticəsində erməni silahlılarının xeyli canlı qüvvəsinin məhv edilib və yaralanması, həmçinin bir neçə "D-30" haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilməsinin də böyük əhəmiyyəti olacaq, yəqin ki?***

- Bəli, əlbəttə. Heyvalı da, Yuxarı Orataq da Sərsəng su anbarının sağ sahilində yerləşən çox strateji əhəmiyyətli məntəqələrdir. 1992-1993-cü illərdə həmin məntəqələrin azad edilməsi və müdafiəsi uğrunda neçə-neçə Azərbaycan oğlu şəhid olub. İnşallah, tezliklə həmin kəndləri də azad edər ordumuz... Ağdam-Xocalı istiqamətində də Fərrux yüksəkliyi artıq bu ilin mart ayından azad olunub, şərqdə Laçın tərəfdən bayaq xatırlatdığımız Qırxqız dağı azad edilib. Qalır Xocalı rayonu ərazisindəki Ulubaba, Sağsağan dağı kimi o qədər də hündür olmayan yüksəkliklər ki, ordumuz onları da asanlıqla azad edəcək və Xocalı, Xankəndinə yol xeyli açılacaq. Yəqin ki, avqustun 25-dən sonra Qarabağdakı qanunsuz silahlı birləşmələr könüllü şəkildə silahı yerə qoymasalar, artıq son və həlledici antiterror əməliyyatı başlayacaq və ordumuz Şuşa ətrafındakı Böyük Kirs(2725 m), Kiçik Kirs(2346) və Keçəldağ(2214 m) kimi yüksəklikləri də azad edərək qısa müddətdə keçmiş Dağlıq Qarabağ ərazisini, demək olar ki, tam nəzarətə götürəcək...

***- Siz 1993-1994-cü illərdə, dekabr-yanvar aylarında, yəni qışın oğlan çağında keçirilmiş Murovdağ savaşı zamanı 3500 metrə yaxın Ömər aşırımı, Koroğlu kimi yüksəkliklərdə hücum əməliyyatlarında iştirak etmisiz. Keçmiş Dağlıq Qarabağ ərazisi əsasən dağlıq ərazilərdir. Bu ərazilərdə keçirilən müdafiə və hücum əməliyyatlarında iştirak edən döyüşçülərimiz əsasən hansı vərdişlərə yiyələnməlidir?***

- Əlbəttə, öncə yüksək fiziki hazırlıq, dözümlülük tələb olunur. Dağlıq şəraitdə, qayalıq, daşlıq cığırlarda təhlükəsiz hərəkət etmək üçün çeviklik, cəldlik lazımdır. Həmçinin payız-qış dönəmində soyuğa da qarşı dözümlülük gərəkdir. Bir sözlə, dağlıq şəraitdə normal döyüş aparmaq üçün alpinist vərdişləri tələb olunur. Lakin çox şükür ki, Qarabağ istiqamətində ən çətin, ən yüksək olan ekstremal şəraitli yüksək Murovdağ dağ silsiləsinin əsas zirvələri azad olunub. Həmin silsiləyə daxil olmayan, lakin strateji əhəmiyyətli Buzdux da azad olundu. Yəni Murovu keçəndən sonra artıq yüksəklilər azalır. 2300-2400 metrlik yüksəkliklər qalır - əsasən orta və alçaq yüksəkliklər. Aşağı endikcə isə iqlim də yaxşılaşır, relyef də. Belə şəraitdə döyüş əməliyyatları aparmaq hazırlıqlı hərbi birləşmələr üçün o qədər də çətin deyil. Bizim ixtisaslaşmış hərbi birləşmələr də hər cür şəraitdə; həm dağ, həm meşə, həm çöl şəraitində döyüşməyə hazırdır. Konkret olaraq püxtələşib. Hesab edirəm ki, artıq Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda həll edə bilməyəcəyi problem qalmayıb. Çünki istər Ermənistandakı, istərsə də Qarabağdakı erməni ordusunun bizim orduya qarşı qoyulacaq hərbi birləşmələri də, texnikası, silah-sursatı da yoxdur. Əsas odur ki, ordumuzun xüsusi birləşmələri operativ və çevik şəkildə və əsasən düşmənin arxasında işləyir. Məsələn, Kəlbəcərin Ağqaya kəndi var. Almalıq kəndindən, Laçın kəndindən keçib həmin kəndə çıxırsan. Rusiya hərbçilərinin məsuliyyət zonası Ağqaya kəndindən keçir. Həmin kənd yaxınlığındakı erməni postlarını almaq üçün bizim xüsusi təyinatlılar öncədən gedib orada mövqelərini qurmuşdular. Və düşmənin gözləmədiyi şəraitdə hücum edib həmin mövqeləri tam azad etmişdilər. Yəni qanunsuz hay birləşmələri bir də ayılıb ki, artıq Azərbaycan hərbçiləri onların arxasındadır və təslim olmağa məcbur qalıblar... Buzdux kimi bir yüksəkliyin də qısa müddətdə azad olunması göstərir ki, ordumuzda hərbi və fiziki hazırlıq baxımından kifayət qədər püxtələşmiş, təpərli və dizibərk oğullarımız yetərincədir...

Və ən əsası, birinci Qarabağ müharibəsi ilə, yəni 1990-cı illərlə müqayisədə ordumuz dəfələrlə inkişaf edib. Hazırda xüsusi ixtisaslaşmış dağ-atıcı alaylarımız da, həmlə qruplarımız, xüsusi təyinatlılarımız, qardaş Türkiyənin böyük dəstəyi ilə hazırlanmış "Komandos" birləşmələrimiz də var...

***- Yəqin ki, bütün hallarda dağ şəraitini də nəzərə alaraq havalar soyuyanadək, təxminən 8 Noyabr Zəfər Gününədək Qarabağdakı əsas hərbi əməliyyatları yekunlaşdırsaq, yaxşı olar?***

- Bilirsiz, əvvəla, öncə dediyim kimi, avqustun sonunda əməliyyatlar başlasa, qısa müddətdə, uzağı 10-15 günə uğurla yekinlaşacaq. İkincisi də hava şəraiti dediyimiz orta yüksəkliklər şəraitində də təxminən noyabrın 20-dək hərbi əməliyyatlar aparmağa imkan yaradır... İnşallah, Qarabağda tam və qəti qələbə bizimlədir. Allah şəhidlərimizə rəhmət eləsin və ordumuzu qorusun!..

***✍ Sultan Laçın***

## Müsahib

**Azərbaycanın sabiq baş diplomatı Tofiq Zülfüqarovla hafta.az üçün budəfəki söhbətimizdə Londondakı Səfirliyimizə hücumun detalları, Estoniyada səfir kimi çalışarkən yaşadığı bənzər olay, ordumuzun Qarabağdakı son uğurlu antiterror əməliyyatına səbəb olan erməni təxribatlarının gerçək qaynaqları, Paşinyanın "azərbaycanlılar Ermənistandan keçib Naxçıvana gedə bilər", - deyiminin mahiyyəti, Tayvanla bağlı ABŞ-Çin gərginliyi və s. məsələləri müzakirə etməyə çalışdıq.**



**Tofiq Zülfüqarov,**
Azərbaycanın sabiq
baş diplomatı

# Rusiya Qərbin Zəngəzur məsələsinə qarışmasını istəmir

***- Tofiq müəllim, necə hesab edirsiniz, Londondakı Səfirliyimizə hücum hansı mərkəzlərdən qaynaqlanır? Maraqlıdır ki, hücumu təşkil edən radikal təşkilat iranlı ayətullah Şirazi ilə bağlı olsa da, hazırkı İran rejiminin əleyhinədir...***

- Əvvəla, dünyada bunabənzər qruplaşmalar onlarladır. Onlar müxtəlif təriqət və məzhəblərə xidmət edir, özlərinə uyğun müxtəlif hansısa dinə bənzər modellər yaradırlar... İkincisi, əldə olan informasiyalar əsasında belə nəticəyə gəlirəm ki, bəhs edilən radikal qrupun London Səfirliyimizdə törətdiyi təxribatın birbaşa Azərbaycana aidiyyəti yoxdur. Sadəcə, qrupun məqsədi ondan ibarət olub ki, bu və ya digər üsulla özlərinə diqqət cəlb etsinlər və gündəmdə qalsınlar...

Biz başa düşməliyik ki, bu və ya digər diplomatik missiyanın təhlükəsizliyini ölkə təmin etməlidir. Çox maraqlıdır ki, belə bir radikal qrup Britaniya təhlükəsizlik xidmətlərinin diqqətindən kənarda qalıb. Yaxud ona nəzarət lazımi səviyyədə olmayıb. Əgər normal nəzarət olsaydı, hadisə baş verməzdən öncə hücumu hazırlayan şəxslər zərərsizləşdirilərdi. Üçüncü məsələ ondan ibarətdir ki, son dövrlər Britaniyada radikal qrupların iştirakı ilə müxtəlif ölkələrə qarşı bənzər olaylar mütəmadi baş verir. Odur ki, Azərbaycan və digər ölkələr belə insidentlərlə bağlı iradlarını, ilk növbədə, Britaniyanın təhlükəsizlik sisteminə bildirməlidir. Xüsusi xidmət qurumları ölkədə bu cür təhlükəsizlik boşluqları yaratmamalıdırlar ki, radikal ünsürlər bundan istifadə etsin. Yəni Azərbaycan səfirliyinə qarşı bəhs edilən insident də məhz belə təhlükəsizlik boşluqlarının nəticəsi olub.

O ki qaldı konkret Azərbaycanın diplomatik missiyalarının təhlükəsizliyinin təmin olunmasına, bu, müxtəlif ölkələrdə müxtəlif cür təmin olunur. Və hesab edirəm ki, Azərbaycan diplomatları beynəlxalq təcrübəyə, Vena konvensiyasının uyğun olaraq ilk növbədə dərhal Britaniya polisinə xəbər veriblər və özləri də təlimata uyğun davranıblar. İnternet saytları və sosial şəbəkələrdə belə fikirlər də paylaşılır ki, diplomatlar gərək ərazini müdafiə edəydilər, silah tətbiq etməliydilər. Bu, bir az populist baxışlardır. Belə hərəkətlərin diplomatiya, beynəlxalq reaksiya baxımından hansı fəsadlar verə biləcəyini hadisəni törədən radikal qruplaşma da nəzərə ala bilərdi. Odur ki, bir daha Londondakı diplomatlarımızın təlimata uyğun hərəkət etmələrini təqdirəlayiq hesab edirəm. Əminəm ki, zəruri xidməti araşdırma aparıalacaq və lazımi qərarlar qəbul olunacaq...

Öz təcrübəmdə Londondakına bənzər situasiya ilə qarşılaşmışam... Estoniyada səfir kimi çalışarkən Ramil Səfərovun Budapeştdə erməni hərbçisinə qarşı törətdiyi hadisə ilə bağlı erməni diasporası tərəfindən bütün dünyadakı Azərbaycan diplomatik nümayəndələrinə qarşı təhdidlər səsləndirilirdi. O günlər bizə gələn məlumata görə, ermənilər bizim səfirlik qarşısında da hansısa etiraz tədbirləri həyata keçirməyə hazırlaşırdı. Çox yaxşı bir hal oldu ki, gözlənilmədən Azərbaycanın Estoniyadakı diasporası bu haqda xəbər alan kimi qısa müddətdə Tallində olan soydaşlarımıza məlumat verib. Nəticədə, yüz nəfərdən çox azərbaycanlı səfirlik ətrafında toplaşaraq, canlı sədd qurmuşdular və polislə birgə Azərbaycan Səfirliyinə qarşı istənilən təxribatın qarşısını almaq əzmini nümayiş etdirmişdilər. O zaman bu, çox təsirli bir olay kimi qarşılandı. Diplomatlarımız səviyyəsində uzun müddət təqdiredici söhbətlər getdi... Yəni müxtəlif hallarda fərqli üslublar tətbiq olunmalıdır. Konkret Londondakı olay terrorist olayına bənzəyir. Odur ki, hesab edirəm, diplomatlarımız çox təmkinli və düzgün hərəkət ediblər...

***- Belə versiyalar da var ki, Londondakı Səfirliyimizə hücum Azərbaycan Ordusunun Qarabağdakı son uğurlu antiterror əməliyyatlarından sonra ermənilərin də bağlı olduğu müəyyən güc mərkəzlərinin bununla Azərbaycana təzyiq etmək cəhdidir...***

- Belə bir əlaqəni görmürəm. Məndə olan məlumatlar da bunu göstərir... Yenə də deyirəm: həmin radikal təşkilatın məqsədi, sadəcə, özünə diqqət cəlb etmək olub. Britaniyanın təhlükəsizlik sistemində tapdıqları boşluqdan yararlanaraq, Azərbaycan Səfirliyinə qarşı bu aksiyanı icra ediblər. Bizim bundan sonra görəcəyimiz əsas iş ondan ibarət olmalıdır ki, Böyük Britaniya Xarici İşlər Nazirliyi qarşısında həmin ölkədəki diplomatik missiyamızın təhlükəsizliyinin təmin olunması və gələcəkdə belə insidentlərin təkrar olunmamasına təminat verilməsi məsələsini qaldırmalıyıq...

***- Bəzi şərhçilər Qarabağdakı son antiterror əməliyyatının başlanmasına səbəb kimi, Rusiyanın oradakı qanunsuz erməni silahlı birləşmələrinin əli ilə törətdikləri təxribatları göstərir. Bu versiyaya söykənənlər belə hesab edirlər ki, Rusiya Kosovo, Moldova, Gürcüstan kimi, Qarabağda da hərbi qarşıdurmaların yaradılmasına çalışmaqla diqqəti Ukraynadakı əsas cəbhədən yayındırmaqda maraqlıdır. Digərləri isə Güney Qafqazda Rusiyaya qarşı ikinci cəbhənin açılmasında Qərbin, ABŞ, Avropanın maraqlı olduğunu söyləyir... Siz necə düşünürsünüz?***

- Bilirsiniz, tərəflər, yəni bu halda üçüncü oyunçular Qarabağ və Zəngəzur məsələlərində daim özlərinə uyğun taktikalardan yararlanırlar. Müxtəlif hallarda münaqişəni qızışdırmaqdan öz xeyirlərinə istifadə etməkdən çəkinmirlər. Son 30 il ərzində biz buna nümunələri çox görmüşük və yaşamışıq. Odur ki, həmişə diqqətli olmalıyıq, Rusiyanın, Qərbin siyasətini dərindən təhlil edib hansı mərhələdə kiminsə bizə zidd olan, amma həmin tərəfə faydalı olan davranışlarını əvvəlcədən bilməliyik. Yəni bizim üçün deyilən tərəflər arasında nə daimi düşmən var, nə də daimi dost. Bizim etibarlı müttəfiqimiz Türkiyədir. Əsasən, Türkiyə ilə bir yerdə biz bütün qalan məsələləri həll etməyə qadirik.

Hazırkı mərhələdə Qarabağda silahlı qarşıdurma yaşanmasında kimin maraqlı olduğunu söyləmək isə çətindir. Hər halda bəllidir ki, Qərb proseslərdən kənarda qalmaqdan narahatdır. İstənilən halda istəyir ki, bu proseslərə müdaxilə etsin. O da bəllidir ki, Rusiya da Qərbin Qarabağ və Zəngəzur məsələlərinə qarışmasını istəmir. Rusiya Qərbi məsafədə saxlayır. Moskvanın bu konfliktə təsirini isə Azərbaycan-Türkiyə müttəfiqliyi bu və ya digər şəkildə neytrallaşdırır. Vəziyyət, təxminən, belədir. Biz bu formatda çox incə bir diplomatik oyun aparmalıyıq. Bir vaxtlar vardı, Rusiyanın Qarabağ məsələsinə təsirini Qərb ilə neytrallaşdırmağa çalışırdıq. Amma 30 ilin təcrübəsi, xüsusən də Minsk qrupunun işi ilə bağlı təcrübə göstərir ki, Avropa və ABŞ istənilən halda Rusiya ilə öz aralarında dil tapıb bizə qarşı qeyri-adekvat mövqe nümayiş etdiriblər və etdirə bilərlər. Yəni Rusiyanı neytrallaşdırmaq üçün Qərb yetərli tərəfdaş deyil...

Qərbin ikiüzlülüyü Ukraynada da özünü göstərir və o da yeri gələndə digər ərazilərdə işğalçılıqla məşğul olur. Odur ki, ABŞ və Avropa səmimi müttəfiq deyillər. Yəni bu baxımdan, qoy Rusiya Qərbi məsafədə saxlasın. Rusiyanın həmlələrini isə biz Azərbaycan-Türkiyə tandemi ilə dəf edək. Mən bu müdafiə sxeminin tərəfdarıyam...

***- Azərbaycan Ordusunun növbəti uğurlu əməliyyatından sonra Paşinyan birdən-birə dedi ki, rəsmən bəyan edirəm, azərbaycanlılar Ermənistanın istənilən nöqtəsindən bu ölkənin qanunlarının icrası, yəni gömrük haqqı-filan ödəmək şərti ilə, keçib Naxçıvana gedə bilər. Bəlkə bununla demək istəyir ki, Ermənistan vətəndaşı olan ermənilərin də Laçından eyni şərtlərlə keçməsinə razıyıq?***

- Məntiqlə davam etsək, belə çıxır... Əslinə qalsa, Zəngəzur dəhlizi mövzusu yalnız Azərbaycanın əsas hissəsinin Naxçıvanla əlaqəsinin qurulmasını ehtiva etmir. Burada eyni zamanda tarixi ədalətin bərpası məsələsi var. Bu baxımdan bizdə belə fikirlər səslənir ki, Zəngəzur məsələsi vasitəsilə Laçın məsələsini də həll edək. Laçın məsələsi faktiki həll olunub, Qarabağ məsələsi həll edilib. Sadəcə, hansısa bir müddətdə, mərhələdə tam şəkildə həll edilməsi hələ də müəyyən siyasi fəallığı gözləyir. Bəlkə də hərbi-siyasi fəallığı... Məsələ nəticə etibarilə artıq bəllidir. Ona görə də Laçın məsələsini Zəngəzur məsələsi ilə əlaqələndirməyin tərəfdarı deyiləm. Laçın məsələsini onsuz da Zəngəzursuz tam şəkildə həll edəcəyik. On noyabr razılaşmasına görə, ermənilərin öhdəliyi var ki, Zəngəzurdan bizə dəhliz versinlər və onu verməlidirlər. O da var ki, eyni sənədə əsasən Laçın yolu öhdəliyi Azərbaycan üçün 5 illikdir. Fəqət, yenə də 10 Noyabr sənədinə uyğun olaraq, Zəngəzur dəhlizini Ermənistan bizə müddətsiz verməlidir. Rusiya sərhəd qoşunları isə 10 Noyabr Bəyanatına əsasən yox, 1992-ci ildə Ermənistanla Rusiya arasında imzalanmış sənədə əsasən oradadırlar. Bəzi tənqidçilər bu məsələni də nəzərə almırlar. Ona görə yenə də təkrar edirəm, Laçınla Zəngəzurun əlaqələndirilməsinin tərəfdarı deyiləm...

> *Moskvanın Qarabağ məsələsinə təsirini Azərbaycan-Türkiyə müttəfiqliyi neytrallaşdırır*

***- ABŞ və Çinin Tayvanla bağlı qarşıdurmasına necə yanaşırsınız? ABŞ Konqresi Nümayəndələr Palatasının spikeri xanım Nensi Pelosinin Tayvana məlum səfərindən sonra yaranmış durumu nə cür dəyərləndirirsiniz?***

- Əslində bu, böyük bir mövzudur. Qısaca şərh etsək, anlamalıyıq ki, ABŞ-ın Tayvana aid siyasətinin nizamlanması, onun bünövrəsi xüsusi qanun çərçivəsində təsbit olunub. Həmin qanun hələ 1979-cu ildə Cimmi Karterin prezidentliyi dövründə qəbul edilib. Və bu qanuna əsasən Tayvan Çini tərkib hissəsidir. Onun bilavasitə Çinə birləşməsinin sülh yolu ilə baş verməsi tələb olunur. Eyni zamanda, Vaşinqtonun mövqeyi ondan ibarətdir ki, Tayvanla Çin eyni dövlətə daxil olsa da, müxtəlif siyasi sistemlərə malikdir. Buna yəqin ki, çoxları diqqət etməyib. Bir neçə həftə öncə ABŞ Prezidenti Co Bayden Cənubi Koreyada səfərdə olanda bəhs edilən qanunazidd müəyyən bəyanatlar verib və mövcud gərginlik ondan sonra başlayıb. Pelosinin səfərinə gəldikdə, bu, böyük diqqət cəlb etdi. Hesab edirəm, bir məsələyə də lazımi diqqət verilmir. Pelosi "Vaşinqton-Post" qəzetində Tayvan haqqında xüsusi bəyanat dərc etdirib. Həmin bəyanatda göstərilir ki, ABŞ Tayvanla bağlı siyasətini sözügedən prinsiplərə uyğun həyata keçirir və Pelosinin səfəri məhz həmin prinsiplərə sadiqliyi nümayiş etdirmək məqsədi daşıyır. Yəni hesab edirəm, bu səfər Prezident Baydenin səhvini düzəltmək kimi qəbul olunmalıdır. Beləliklə, Çin öz istəyinə nail olub. "Vaşinqton-Post"dakı bəyanatı oxusaq, hər şey daha aydın olar...

***- Qərb Ukraynaya "HİMARS" və digər müasir texnologiyalı silahlar verdikdən sonra cəbhə xəttində Ukrayna artıq nəzərə çarpan üstünlüklər əldə edib. Rusiya isə öncəki aylardakı kimi irəyliləyişlərə nail ola bilmir. Hadisələrin sonrakı inkişafını necə görürsünüz?***

- Bilirsiniz, "HİMARS"ların sayı o qədər də çox deyildir. Sadəcə, belə düşünürəm, artıq Rusiya-Ukrayna cəbhəsində hansısa bir stabilləşmə prosesi gprünməkdədir. Təmas xətti də, demək olar ki, təsbit olunub. Hiss olunur, Rusiya bir çox yerlərdə vəziyyətin dondurulmasına hazır olduğunu bəyan edib. İndi Ukrayna buna nə vaxt hazır olacaq - zaman göstərəcək. "HİMARS" vəziyyəti dəyişəcək, yoxsa yox? Doğrusu, yenə də inanmıram ki, hərbi baxımdan real dəyişikliklər olsun. Ukraynanın hərbi potensialı Rusiyanınkından çox fərqlidir. Bu, artıq siyasət yox, riyaziyyatdır... Bu reallığı görməmək mümkün deyil...

***✍ Sultan Laçın***

# Dini tolerantlığın Azərbaycan modeli

## Layihə

***Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin qovuşduğu məkan kimi tanınıb. Belə ki, ayrı-ayrı dinlərə etiqad edən insanlar ölkəmizdə daima sülh və əmin-amanlıq şəraitində yaşayıb, Azərbaycan xalqının ictimai-siyasi həyatında mühüm rol oynayıb, etnik xüsusiyyətlərini, dinlərini, adət-ənənələrini qoruyub saxlayıblar. Tarix boyu ölkəmizdə yaşayan xalqlar arasında milli, irqi, dini ayrı-seçkilik, ədavət və qarşıdurma müşahidə edilməyib. Eyni zamanda, Azərbaycan ərazisi bütün dövrlərdə dini dözümsüzlükdən əziyyət çəkən insanlar üçün sığınacaq yeri olub, bura təkcə ayrı-ayrı dinlərin nümayəndələri deyil, həm də müxtəlif səbəblərdən təzyiqlərə məruz qalan dini cərəyanların nümayəndələri də pənah gətiriblər.***



Onlar burada özlərini yad hesab etməmiş, yerli əhali ilə qaynayıb qarışıb, qohumluq əlaqələri qurmuş və hər zaman yerli əhali ilə həmrəy olublar. Yəni, dünyanı bürüyən sosial gərginliklər, dini qarşıdurmalar və müxtəlifliyə qarşı dözümsüzlük halları yaşadığımız dövrdə Azərbaycan Azərbaycan müxtəlif millətlərin, dini konfessiyaların dinc birgə yaşadığı ən unikal nümunədir. Məlumat üçün xatırladaq ki, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqının zəngin tolerantlıq və multikulturalizm ənənələrinin qorunmasına xüsusi diqqət yetirilmiş, ölkəmizdə dini dözümlülüyün möhkəmləndirilməsi hökumətin din siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Heydər Əliyev mütəmadi olaraq müxtəlif dinləri təmsil edən din xadimləri ilə görüşər, ibadət ocaqlarını ziyarət edər, dindarlar qarşısında çıxışlar edər, dini bayram və mərasimlər münasibətilə onları təbrik edərdi. Hazırda bu siyasəti Prezident İlham Əliyev böyük uzaqgörənlik və uğurla davam etdirir. Bu gün ölkədə yaşayan müxtəlif dinlərin nümayəndələrinə böyük diqqət və qayğı ilə yanaşmaq Azərbaycan hökumətinin din siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinə, tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə, dini abidələrin təmir və bərpasına xüsusi önəm verir, mütəmadi olaraq dini icma rəhbərləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində son illər bir sıra məscidlər, tarixi mədəniyyət abidələri yüksək memarlıq üslubunda təmir və bərpa olunub. Həmçinin, dövlət dini icmalara daima xüsusi qayğı ilə yanaşır, dövlət büdcəsindən onlara maliyyə yardımı ayırır, dini bayram və mərasimlər dövlət səviyyəsində qeyd edilir. Bu, Azərbaycan hökumətinin dini icmalara yüksək diqqət göstərdiyinə dəlalət edir.

Azərbaycanda dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi istiqamətində Heydər Əliyev Fondu da mühüm işlər görür. Fondun xətti ilə xristianlığa və İslama aid bir çox dini abidələr təmir və bərpa edilib. Məsələn, Fondun dəstəyi ilə 2009-cu ildə Bakıda yerləşən "Bakirə Müqəddəs Məryəm" katolik kilsəsində yenidənqurma və bərpa işləri aparılıb. 2016-cı ilin fevral ayının 23-də isə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Vatikanda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa edilmiş Marçellinio və Pietro katakombalarının açılış mərasimi keçirilib. Bu Azərbaycanın təkcə ölkəmizdə deyil, dünyanın ayrı-ayrı bölgələrində yerləşən müxtəlif mədəniyyətlərə və dinlərə aid abidələrə göstərdiyi qayğının və diqqətin göstəricisidir.

> *"Azərbaycan azsaylı ölkələrdəndir ki, burada yəhudu, xristian, müsəlmanlar bir evdə, bir həyətdə, bir məhəllədə yaşayaraq bir-birlərinin tədbirlərində, toylarında, yaslarında yaxından iştirak edirlər*

Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin son məlumatına görə, ölkəmizdə əhalinin təxminən 90.6 faizini təşkil edən azərbaycanlı-türklərdən əlavə, say nisbətinə görə sıralasaq, ləzgilər, ruslar, ermənilər, talışlar, avarlar, türklər, tatarlar, ukraynalılar, saxurlar, gürcülər, kürdlər, tatlar, yəhudilər, udinlər və digər daha azsaylı xalqlar - ingiloylar, xınalıqlılar, lahıclılar, haputlular, əliklilər, ceklilər, qrızlılar, rutullular, kilitlilər yaşayır. Bu xalqların əksəriyyəti yalnız öz etnik tərkiblərindən ibarət olmaqla kompakt şəkildə ayrıca yaşayış məntəqələrində məskunlaşıblar. Hazırda ölkənin şimal və şimal-qərb bölgəsində etnik tərkibin əsas faizini təşkil edənQuba, Qusar, Xaçmaz, Oğuz, Qəbələ və digər rayonlarda bütövlükdə, yaxud böyük əksəriyyəti ləzgilərdən ibarət çoxlu sayda kənd mövcuddur.

Azərbaycanda sayı 150 mindən artıq olan ruslar isə Bakıda, Sumqayıtda və Gəncədə, o cümlədən kompakt halda İsmayıllının İvanovka, Gədəbəyin Novosaratovka, Novoivanovka, Qorelsk və Slavyanka, Goranboyun Rus Borisi, Şamaxının Çuxuryurd, Qızmeydan və Nağaraxana kəndlərində məskunlaşıblar. Bu kəndlərdən əsası XIX əsrin ortalarında qoyulan və yaradıcısı İvan Perşin şərəfinə adlandırılan İvanovka daha məşhurdur. Kənddə əsasən, çar hakimiyyəti dövründə Qafqaza köçürülmüş molokanlar yaşayır. İsmayıllıda qədim etnik xalqın məskunlaşdığı kəndlərdən biri də Lahıcdır. Əsasının erkən orta əsrlərdə qoyulduğu ehtimal olunan kəndin əhalisinin - lahıcıların Sasanilər dövründə Gilanın Lahican əyalətindən köçüb gəldikləri güman edilir.



**Ceyhun Məmmədov,**
millət vəkili

Etnik zənginliyinə görə ölkənin ən rəngarəng rayonu hesab olunan Quba, azsaylı nadir etnik toplumların mövcudluğu baxımından da diqqəti çəkir. Rayon ərazisində yerləşən, nəinki ölkəmizdə, bütün dünyada tanınan, 99 faizi dağ yəhudilərindən ibarət Qırmızı Qəsəbənin 280-300 ilə yaxın tarixi var. Vaxtilə indiki İsrail ərazisindən İraqa, sonra İrana, oradan isə xanlıqlar dövründə Azərbaycana köç etmiş yəhudilər Qudyalçayın sol sahilində məskunlaşıblar və Quba xanı Fətəli xan tərəfindən onların təhlükəsizliyi tam təmin edilib.

Qubada nadir etnik xalqın yaşadığı daha bir ecazkar yaşayış məskəni Qafqaz dağlarının 2400 metrlik zirvəsində, 5 min illik tarixə malik olduğu güman edilən Xınalıq kəndidir. Özlərini kətşlər (Xınalıq dilində - müqəddəs) adlandıran xınalıqlılar etnik qrupu minilliklər boyu xalqımızın tolerantlığına borclu olaraq öz dilini, adət-ənənələrini bugünədək qoruyub saxlamağı bacarıblar. Rayon ərazisində Şahdağ milli etnik qrupuna aid edilən yergüclülər, əliklilər, buduqlular, ceklilər, qrızlılar, haputlular və tatların məskunlaşdığı eyniadlı kəndlər də var.

Lənkəran-Astara bölgəsində talışların, ermənilərin işğalına qədər Laçın, Qubadlı, Zəngilan və Kəlbəcərdə kürdlərin, Balakən, Zaqatala və Qaxda gürcülərin, ingiloyların, avarların, saxurların, Oğuzda və Qəbələnin Nic kəndində qədim Qafqaz Alban tayfalarından udinlərin - bu adda etnos hazırda yalnız Azərbaycanda mövcuddur - kütləvi şəkildə məskunlaşmaları, bu xalqların hər birinin öz dilində danışmaq, ənənəvi dinlərinə tapınmaq, özlərinə aid hər şeyi qorumaq hüququna və müstəqilliyinə malik olmaları Azərbaycandakı tolerantlığa parlaq misaldır. Xalqımız Ahıska türklərinə də XX əsrin 50-ci illərindən qucaq açıb.

1944-cü ildə Ahıskadan sürgün edilən ahıskalılar həmişə qayğı, məhəbbət gördükləri Azərbaycanı özlərinin ikinci vətəni hesab edirlər. Fərqanə hadisələrindən sonra yenidən ölkəmizi pənah yeri seçən Ahıska türklərinin burada sayı hazırda 100 mindən artıqdır. Bütün sadalanan faktlar bu xalqların nümayəndələrinin özlərini Azərbaycanda qətiyyən yad hiss etmədiyinə, onların respublikanın bərabərhüquqlu vətəndaşları olaraq milli kimliklərini qoruduğuna əyani sübutdur.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

### Ekspert rəyi

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili Ceyhun Məmmədov da deyib ki, hazırda Azərbaycanda müxtəlif dinlərin, xalqların nümayəndələri sülh və anlaşma şəraitində yaşayırlar:**

"Dövlət bu istiqamətdə onların fəaliyyəti üçün gərəkli hər bir şəraiti yaradıb. Bu gün onu da qeyd etməliyik ki, Azərbaycan azsaylı ölkələrdəndir ki, burada yəhudu, xristian, müsəlmanlar bir evdə, bir həyətdə, bir məhəllədə yaşayaraq bir-birlərinin tədbirlərində, toylarında, yaslarında yaxından iştirak edirlər. Bu gün Bakıda 3 pravoslav kilsəsi fəaliyyət göstərir, 1 katolik kilsəsi mövcuddur, 2 sinaqoq fəaliyyətdədir. Eləcə də Sumqayıtda, Gəncədə pravoslav kilsələri mövcuddur. Yəni, tarixən Azərbaycan belə olub və dini, millətlərarası münasibətlər ən yüksək səviyyədə özünü göstərib. Tarixən ayrı-ayrı ölkələrdə zülmə, ayrı-seçkiliyə məruz qalan dinlərin nümayəndələri Azərbaycana pənah gətirərək burada məskunlaşmış, burada yaşamış və qaynayıb-qarışmışlar.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra da Ulu Öndər bu istiqamətdə çox mühüm qərarlar qəbul etdi. Konstitusiyamızda dini etiqad azadlığı təsbit olundu. Eləcə də qeyd etmək lazımdır ki, bu gün həmin siyasəti cənab Prezident uğurla davam etdirir. Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən işğaldan azad olunmuş ərazilərdə də dini abidələrin təmir və bərpası yüksək səviyyədə həyata keçirilir. Bütün bunlar onu göstərir ki, Azərbaycanda dinə çox yüksək səviyyədə qayğı var, dövlət milli-mənəvi dəyərlərimizi qoruyur, dövlət etiqad azadlığı üçün hər cür şəraiti yaradır. Eyni zamanda, ölkədə cərəyan edən prosesləri də öz diqqətində saxlayır və bir sıra hallarda da ölkədəki dini duruma mənfi təsir göstərə biləcək halların qarşısının alınması üçün də davamlı olaraq müxtəlif tədbirləri həyata keçirir. Yəni, bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycan dövlət-din münasibətlərində dünyada nümunəvi ölkədir. Bunu bütün dünya ölkələri etiraf edirlər".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Mədəniyyət naziri Anar Kərimovun əmri ilə Yusubov Azər Namiq oğlu Şəki Regional Mədəniyyət İdarəsinin rəisi vəzifəsinə təyin edilib. A.Yusubov sonuncu təyinata qədər Şəki Apelyasiya Məhkəməsində baş məsləhətçi-sədrin köməkçisi məsul vəzifəsində çalışıb. A.Yusubov dövlət qulluğunun kiçik müşaviridir.

■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) kollegiyasının tərkibində dəyişiklik edilib. Hafta.az xəbər verir ki, bu barədə Nazirlər Kabineti məlumat yayıb. Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, kollegiya üzvlərinin sayı 13-dən 15-ə çatdırılıb.

■ Azərbaycan Mərkəzi Bankının (AMB) Maliyyə idarəetməsi departamentinin direktoru dəyişib. Anar Mansurov bu vəzifədə Sevda Əmirovanı əvəzləyib. Bundan əlavə, AMB-nin sədrinin ofisi departamenti ləğv olunub.



■ Amerikalı sahibkar İlon Mask "Tesla" şirkətinin səhmlərini 6,9 milyard dollar məbləğinə satıb. Bu barədə "Bloomberg" agentliyi xəbər verir. Bu, biznesmenin ən böyük səhm satışı olub. Qeyd edək ki, İ. Mask "Tesla" və "SpaceX" şirkətlərinə rəhbərlik edir.

■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti bu ilin 7 ayında vətəndaş müraciətlərinin araşdırılması zamanı 447 min manatdan çox sosial xarakterli ödənişlərin işçilərə ödənilməsinin gecikdirildiyini müəyyən edib. Müvafiq işəgötürənlər həmin vəsaitin işçilərə ödənilməsini təmin edib. Ödənilən vəsaitin 96,7 faizi əməkhaqqı, qalan hissəsi sosial müavinətlər və kompensasiyadan ibarət olub.

■ Azad edilmiş ərazilərdə 42 abidə (30 pasport Şuşa üzrə) pasportlaşdırılıb. Bunu Trend-ə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Beynəlxalq və İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova deyib. Qeyd edilib ki, dəymiş zərərin qiymətləndirilməsi üçün abidələrin sənədləşdirilməsi xüsusi önəm daşıyır.



■ Çeçenistan 9 min döyüşçünü Ukrayna ərazisinə göndərməyə hazırdır. Bunu Çeçenistan rəhbəri Ramzan Kadırov deyib. "Hazırda Çeçenistanda 9000 yaxşı təlim keçmiş döyüşçü Ukraynaya göndərilməyə hazırdır. Daha 10 min əsgər ehtiyatdadır və vaxtını gözləyir. Onlar Ukraynada faşistlər tam məğlubiyyətə uğrayana qədər istənilən işi görməyə qadirdir", - Kadırov bildirib.

■ Gürcüstanın şimalındakı Yona dağı bölgəsində təlim zamanı iki amerikalı hərbçi ölüb, üç hərbçi isə yaralanıb. Yaralılar yaxınlıqdakı xəstəxanaya yerləşdirilib. Hadisənin təfərrüatı açıqlanmayıb. Ehtimal olunur ki, hadisə əlverişsiz hava şəraiti nəticəsində baş verib.

# "Azərbaycanın Tayvanı Çinin ərazisi kimi tanımasını yüksək qiymətləndiririk"

***"Avqustun 2-də ABŞ Konqresi Nümayəndələr Palatasının spikeri Nensi Pelosi Çin hökumətinin sərt etirazına və xəbərdarlığına baxmayaraq, Tayvana səfər edib. Bu, vahid Çin prinsipinin və üç Çin - ABŞ birgə bəyannaməsinin müddəalarının ciddi şəkildə pozulması, Çin - ABŞ münasibətlərinin siyasi təməlinə ciddi zərbə vurmaq, Çinin suverenliyi və ərazi bütövlüyünün kobud şəkildə pozulmasıdır. Bu səfər həm də Tayvan boğazı bölgəsində sülh və sabitliyi pozmaqla yanaşı, separatçı qüvvələrə Tayvanın müstəqilliyi ilə bağlı tamamilə yanlış siqnal göndərir.***

## Dünya

Çin tərəfi qəti şəkildə buna qarşı çıxır, baş verənləri pisləyir və Amerika hökumətinə kəskin etirazını bildirir".

Bu sözləri Hafta.az-a şərhində Çinin Azərbaycandakı səfiri xanım Qo Min deyib. Xanım diplomat bildirib ki, dünyada yalnız bir Çin var və Tayvan Çin ərazisinin ayrılmaz hissəsidir. Çin Xalq Respublikası hökuməti BMT-nin 1971-ci il tarixli 2758 saylı qətnaməsində aydın şəkildə müəyyən edildiyi kimi, bütün Çini təmsil edən yeganə qanuni hökumətdir. 1949-cu ildə ÇXR-in yaranmasından indiyədək 181 ölkə onunla beynəlxalq birliyin universal konsensusu və beynəlxalq münasibətlərin fundamental normasını təmsil edən "vahid Çin" prinsipi əsasında diplomatik əlaqələr qurub.

"Tayvan məsələsi Çin - ABŞ münasibətlərində ən mühüm və həssas məsələdir. Bu gün Tayvan boğazında vəziyyət getdikcə daha da gərginləşir və ciddi problemlər var. Əsas səbəb Taypey rejimi və Vaşinqtonun status-kvonu dəyişmək cəhdləridir. Tayvan səlahiyyətliləri, ABŞ-ın dəstəklədiyi qondarma müstəqilliyi əldə etməyə cəhdlə məşğuldur və 1992 Razılaşmasını tanımaqdan imtina edirlər.

Onlar "desinfikasiya" kursuna başlayıblar və "salyami taktikası" ilə separatçı planı reallaşdırmağa çalışırlar" deyən xanım səfir qeyd edib ki, Vaşinqton Tayvandan bir alət kimi yararlanaraq, vahid Çin prinsipini davamlı olaraq təhrif edir və zəiflədir, Taypey rejimi ilə rəsmi əlaqələri aktivləşdirir və adadakı separatçı qüvvələrə dəstək verir. Belə bir macəra isə böyük təhlükə yaradır və anlamaq lazımdır ki, odla oynayanlar mütləq özlərini yandıracaqlar. Çin hökumətinin və xalqının Tayvan məsələsində mövqeyi birmənalıdır. Dövlətin suverenliyini və ərazi bütövlüyünü möhkəm şəkildə qorumaq 1,4 milyardlıq Çin xalqının sarsılmaz iradəsidir və vətən torpaqlarının tam birləşdirilməsi bütün çinlilərin ümumi arzusu və müqəddəs borcudur. Tarixin axarını tərsinə çevirmək mümkün olmadığı kimi, xalqın iradəsinə qarşı çıxmaq da qəbuledilməzdir. Heç bir ölkə, heç bir güc və heç kim Çin hökumətinin və xalqının milli suverenliyi, ərazi bütövlüyünü qorumaq, ölkəni birləşdirmək və Çin millətini gəncləşdirmək üçün möhkəm əzmini, sarsılmaz iradəsini və qüdrətli qabiliyyətini sınağa çəkə bilməz. Nensi Pelosinin Çin Tayvanına səfəri ilə əlaqədar rəsmi Pekin, şübhəsiz ki, dövlət suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün bütün lazımi tədbirləri görəcək, bundan irəli gələn bütün nəticələrə görə məsuliyyət tamamilə ABŞ-ın və separatçı qüvvələrin üzərində olacaq", - səfir Q.Min deyib.



**Qo Min,**
Çinin Azərbaycandakı
səfiri

Diplomat qeyd edib ki, Çin və Azərbaycan tarixən ənənəvi dost ölkələr olaraq sıx əlaqələrə malikdirlər. Diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində ölkələr arasında ikitərəfli münasibətlər suverenliyə və ərazi bütövlüyünə, qarşılıqlı hörmətə əsaslanıb, bərabərlik, qarşılıqlı fayda və dinc yanaşı yaşama zəminində daim inkişaf edir.

"Çin hökuməti Azərbaycan tərəfinin "vahid Çin" prinsipinə sadiq qalmasını və Tayvanı Çin ərazisinin ayrılmaz hissəsi kimi tanımasını yüksək qiymətləndirir. Çin tərəfi Azərbaycanla dostluğu yüksək qiymətləndirir və beynəlxalq münasibətlərin fundamental normasının qorunması, regionda və bütün dünyada sülh və sabitliyin birgə təmin edilməsi üçün Azərbaycan tərəfi ilə birgə səylər göstərməyə hazırdır", - xanım səfir Q.Min deyib.

***✍ Vüsal Tağıbəyli***



# Londondakı səfirliyimizə hücumun pərdəarxası

**Xəbər verildiyi kimi, avqustun 4-də "Mehdinin xidmətçiləri" təşkilatının üzvləri Azərbaycanın Londondakı Səfirliyinə hücum ediblər. Azərbaycanın Londondakı Səfirliyinə daxil olan etirazçıların Bayrağımızı yerə atması və digər cinayətkar hərəkətləri ölkə ictimaiyyəti, eləcə də dünya azərbaycanlıları tərəfindən hiddətlə qarşılanıb. Bu barədə hafta.az-a danışan Azərbaycan Yazıçılar Birliyinin üzvü, Türkiyə Alparslan Universitetinin professoru Tamilla Əliyeva regionda və Azərbaycan-Ermənistan sərhədində ermənilərin təxribatı nəticəsində baş verən gərginliyin, atəşkəsin pozulmasının və Zəngəzur dəhlizinin açılmasına qarşı Ermənistan, eləcə də İrandan gələn maneələri ardıcıllıqla təhlil etməklə, Londondakı təxribatda dini radikalların və ermənilərin barmağının olduğunu deyib.**

## Müzakirə

Onun sözlərinə görə, "şiələrə dəstək" adı ilə edilən bu hərəkət Azərbaycan-İran arasında münasibətləri pisləşdirməyə yönəlib.

"Əgər mühafizə düzgün qurulsaydı, belə hadisə baş verməzdi. Ölkələr arasında münasibətlər pozulanda, birinci növbədə, səfirliklərə hücum edirlər. Bizim İngiltərə ilə münasibətlərimiz çox yaxşıdır. İndiyədək heç bir səfirliyin içinə kimsə bu cür girə bilməyib. Səfirliklər silahlı polislər tərəfindən qorunur. Həmin gün hansısa iranlı, ərəb çox rahat şəkildə binanın üstünə çıxıb bayrağı yerə atıblar.

Bu gün İran Zəngəzur qapısının açılmasına mane olur. Ermənistanın yenidən müharibə ritorikası ilə çıxışları, hərəkətləri, səfərbərlik elan etməsi, rus əsgərlərinin işbirliyi bütün bu işlərdə ermənilərin əlinin olduğunu açıq-aydın göstərir. Zəngəzur dəhlizinin açılmasında İngiltərənin də marağı var. Ola bilər, bu addım İngiltərə-Azərbaycan arasında münasibətləri pozmağa yönəlib. İngiltərə bu işə kənardan bir tamaşaçı kimi baxmamalı, günahkarlar cəzalarını almalıdırlar.

Azərbaycan qeyri-dindən olan bütün insanlara hörmətlə yanaşır. Ölkəmizdə qeyri-dindən olan insanların kilsələri, ibadət yerləri var.

O zaman kimdir gedib Londonda Azərbaycan Bayrağını yerə atan kəslər? Heç bir azərbaycanl bunu onlara bağışlamayacaq".

■ **Siyasi şərhçi Samir Hümbətov bildirib ki, Londonda baş verən hadisələr və o cümlədən son vaxtlar Bakının bəzi kəndlərində həmin bayraqların nümayiş edilməsi, eyni zamanda, erməni terrorçularının son vaxtlar sərhəddə və daxildə aktivləşməsi Azərbaycana qarşı təxribat, düşmənçilik hallarının çoxalmasından xəbər verir.** Onun sözlərinə görə, regionda, ümumiyyətlə, Azərbaycanda maraqlı olan güclər bu təxribatları artırmaqla həm Azərbaycanın daxilində cəmiyyətin fikirlərini digər tərəfə yönəltməyə çalışır, digər tərəfdən, bəzi dövlətlərin məkrli planlarının olması müşahidə edilir. Politoloq deyir ki, hansısa xarici siyasi güclər məhz din pərdəsi altında regionda baş verən dəyişimlərin qarşısını almağa çalışırlar. Onun fikrincə, əslində, Tehran görüşü və ondan sonra İran dini liderinin verdiyi açıqlamalar, eyni zamanda, İrandakı bəzi dairələrin anti-Azərbaycan siyasəti və Ermənistanla yaxınlaşma siyasətinin hər biri planlı şəkildə həyata keçirilib.

"Hesab edirik ki, burada məqsəd Azərbaycanın daxilindəki sabitliyi pozmaq və onun fikrini regionda yaratdığı yeni reallıqlardan uzaqlaşdırmaqdır. Bununla, həm də Azərbaycanın beynəlxalq nüfuzunu zədələməyə çalışırlar. Düşünürəm, Londonda baş verən məlum hadisə məhz buna hesablanmış hadisə idi. Şübhəsiz, burada xarici xidmət orqanlarının bu və ya digər şəkildə əli var".

Politoloq hesab edir ki, belə bir halın gələcəkdə təkrar olunmaması üçün Azərbaycan tərəfi ciddi addımlar atmalıdır. Biz Londonda baş verən hadisələrin iştirakçılarını araşdıranda belə qənaətə gəlirik ki, təxribatda əli olan insanların daha əvvəldən Azərbaycana qarşı çirkin niyyətləri olub".

■ **İlahiyyatçı Tural İrfan hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycanda heç bir dini qarşıdurma yoxdur və Londonda Səfirliyə hücum edənlər öz istəklərini ölkəmizdə həyata keçirə bilməzlər. Onun sözlərinə görə, Azərbaycanda dini tolerantlıq, multikulturalizm dəyərləri dövlət tərəfindən qorunur və təbliğ olunur.**

"Bizim xalqımız tolerant xalqıdır. Azərbaycanda kifayət qədər başqa millətlərin, dinlərin nümayəndələri yaşayırlar". T.İrfan hesab edir ki, dünyaya nümunə olacaq dini tolerantlığımızla öyünsək də, bununla kifayətlənmək olmaz və bu istiqamətdə aparılan maarifləndirici təbliğat genişlənməlidir. İlahiyyatçı bildirir ki, Azərbaycan 70 il sovet sistemində qalan, dinin repressiyada olduğu bir dövlət olub.

"Biz hesab edirik, din Azərbaycana yeni gəlib. Azərbaycanın mövcud din modeli olmadığı üçün, dinimiz düzgün yayılmır. Şübhəsiz, din dövlətdən ayrı olsa da, dövlətin tövsiyə etdiyi, görmək istədiyi dini mühit ortaya qoyulmalıdır. Dinin təbliğ olunması prosesində müəyyən boşluqlar olanda isə onu radikallar doldurmağa çalışırlar".

T.İrfan vaxtilə Azərbaycanda qeyri-ənənəvi təriqətlərin bünövrəsinin qoyulduğuna diqqət çəkib. Onun sözlərinə görə, Qərb bunu "dini azadlıqlar" adı altında müsəlman ölkələrinə təşviq etsələr də, öz planları var. Lazım gələndə o azlıqları qaldırıb maraqları üçün istifadə edir.

"Bu baxımdan, Azərbaycanda radikal vəhhabiliyin təməli qoyuldu. İndi də "Şiraziçilər" deyilən bir dini qrup var ki, bu da vaxtilə Böyük Britaniya tərəfindən İrandan ayrılmış fars müctəhidin - Sədi Şirazinin başçılığı ilə yaradılıb. Şirazi İranın özünün qondardığı saxta müxalifət də ola bilər. İdeoloji cəhətdən İran hakimiyyəti ilə çəkici eyni yerə vururlar. Məsələn, Azərbaycanda müəyyən radikal İranyönümlü qruplar qalxan kimi, Britaniyadakı Şiraziçilər də gedib Səfirliyimizə hücum etdilər. Deməli, siyasi cəhətdən müəyyən maraqlarda üst-üstə düşməsələr də, əqidə, ideologiya, fars şovinizmi, keçmiş Sasani dəyərlərini dirçəltmək baxımından onlar eyni amaldadırlar".

T.İrfan bildirir ki, Şiraziləri himayə edən Britaniya və Qərb dairələridir. "Onların fətvasına görə, Britaniya Kraliçası Əhli-Beytdəndir, yəni Fatmeyi-Zəhranın övladlarındandır. Onların bəyannaməsində var ki, mübarizələri qeyri-dinlərə qarşı deyil, öz dinindən olub, özlərinin əqidəsində olmayanlara qarşıdır. Onlar şiələri ona görə tənqid edirlər ki, sünnilərə qarşı mülayim davranırlar. Məsələn, öz dindaşlarını İmam Hüseynin yad olunmasını normal şəkildə qeyd etmədiklərinə görə tənqid edirlər. Onlara görə, baş yarmamaq haramdır. İmam Hüseynin şəhadəti günü hər kəs başını yarmalıdır, hətta ölən şəhid sayılır. Bütün İslam böyüklərini, şiə aləmini pis ifadələrlə söyməklə özlərinə haqq qazandırırlar. Peyğəmbərin həyat yoldaşlarına belə, çox təhqiramiz sözlər deyib, onları zinakarlıqda ittiham edirlər".

İlahiyyatçı bildirir ki, bunların məqsədi İslam aləmində parçalanma yaratmaq və tolerant olan Azərbaycan kimi ölkələrdə qarışıqlıq salmaqdır. Onun fikrincə, onlar İranı ona görə tənqid edirlər ki, sünnilərlə ittifaqdadır, Fələstində sünni müsəlmanlara kömək edir.

T.İrfan bildirir ki, Şiraziçilər daha radikal şəkildə Azərbaycan kimi tolerant ölkələrə sızıb, orada ara qarışdırmaq, nifaq yaratmaqla Qərbin maraqlarına xidmət edirlər.

"Biz bunu tənqid edirik, amma unutmayaq ki, Qərbin səlibçilik təfəkkürü hələ ki, davam edir".

İlahiyyatçı hesab edir ki, Azərbaycanda dini, milli qarşıdurma ehtimalı yoxdur. Azərbaycan dövlətinin hüquq-mühafizə orqanları və digər strukturları kifayət qədər səhih və düzgün fəaliyyət göstərirlər.

"Biz bunun nümunəsini 44 günlük müharibədə gördük. Gördük ki, həmin vaxtlar bütün təxribatçıların silahları Azərbaycana tuşlanmışdı. Azərbaycanda bir təxribat da baş vermədi. Eyni zamanda, Azərbaycanda o təxribatlara alət ola biləcək kütlə yoxdur. Azərbaycan dövləti kifayət qədər güclüdür, bu, baş verə bilməz".

Buna baxmayaraq, ilahiyyatçı bildirir ki, belə təxribatçıların Azərbaycanda toxumları var. Onun sözlərinə görə, təxribat cəhdlərinə qədər hazırlanan proseslərin qarşısı alınmalıdır.

"Məsələn, Azərbaycanda məscidlərin çoxunda axundlar Qum, İrantəhsillidir və çoxları anti-Azərbaycan təbliğatı aparır. Bu gün divarlara o bayraqların şəklini çəkənlər Qumda təhsil almış adamlardır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyətini daha da gücləndirməli və onlara səlahiyyətlər verilməlidir. Təməli boşluqdan qoyulmuş bu radikallar aradan götürülməldir. Məsələn, Londonda hadisəni törədən Şiraziçilərin Azərbaycanda nümayəndəsi var. Onlar təqiyə sisteminə əsaslanırlar. Bu da o deməkdir ki, illərlə əqidəsini gizlədib, lazım gələndə ortaya çıxırlar. Məhz gələcəkdə qarşıdurmalar olmasın deyə, bu məsələdə ciddi araşdırma aparılmaldır".

> "
>
> *Ölkələr arasında münasibətlər pozulanda, birinci növbədə, səfirliklərə hücum edirlər*
>
> *Burada xarici xidmət orqanlarının bu və ya digər şəkildə əli var...*
>
> *Londonda o hadisəni törədən Şiraziçilərin Azərbaycanda nümayəndəsi var*

✍ ***Tahirə Qafarlı***

# Qarabağ qaziləri ən yüksək Prezident təqaüdü alırlar

***"Həftə içi" qəzetinin müsahibi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevdir. Musa müəllimlə ölkədə həyata keçirilən sosial siyasəti, şəhid ailələri, müharibə əlillərinin rifahının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən atılan addımları, hökumətin bahalaşmaya qarşı həyata keçirdiyi tədbirləri və digər məsələləri müzakirə etmişik.***



**Musa Quliyev,**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

## Müsahib

***- Musa müəllim, məlum olduğu kimi, bu yaxınlarda Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramına start verilib. Belə ki, Nazirlər Kabinetinin yeni təsdiq etdiyi Qaydaya uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb. Bu addımın əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik. Ümumiyyətlə, hökumət tərəfindən müharibə əlilləri, şəhid ailələri və bu kateqoriyadan olan digər insanlar üçün daha hansı dəstək proqramları nəzərdə tutulur?***

- Qarabağ müharibəsi şəhidləri, qaziləri, müharibə veteranları cəmiyyətimizin ən hörmətli üzvləridir. Onlara həm dövlətimiz, həm də cəmiyyətimiz tərəfindən yüksək səviyyədə qayğı və diqqət göstərilir. Azərbaycan qanunvericiliyi ilə bu kateqoriyadan olan insanlara bir sıra güzəşt və imtiyazlar müəyyən edilib. Eyni zamanda, cənab Prezidentin Fərman və Sərəncamları ilə onların pensiya təminatı, müavinət və təqaüd təminatı yüksək səviyyədə həyata keçirilir. Qarabağ qaziləri və şəhid ailələri üzvləri ən yüksək Prezident təqaüdü və pensiya ilə təmin olunmuşlar. Bu qəbildən olan insanlara bir sıra aktiv və passiv sosial müdafiə tədbirləri nəzərdə tutulub və ardıcıl olaraq həyata keçirilir. Həmin tədbirlərdən də biri bu yaxınlarda cənab Prezidentin Sərəncamı ilə artıq həyata keçirilməyə başlayan Birinci Qarabağ müharibəsi qazilərinin sosial sığorta haqlarının ödənilməsi ilə bağlıdır. Məlumdur ki, Birinci Qarabağ müharibəsi bitəndən sonra həmin dövrdə şəhid olanlar üçün 11 min manat sığorta haqları ödənilmişdi. O proses bitənə yaxın artıq Vətən Müharibəsi başladı. Vətən Müharibəsi şəhidlərinin və qazilərinin də problemlərinin həlli istiqamətində dövlətin xeyli büdcə yükü yaranmışdı. Lakin buna baxmayaraq Birinci Qarabağ müharibəsində qazi olan, sağlamlığını itirən və əlillik dərəcəsi alan insanlara da dövlətin qayğısı olaraq I dərəcə əlilliyə görə - 8 800, II dərəcə əlilliyə görə - 6 600, III dərəcə əlilliyə görə - 4 400 manat olmaqla sığorta ödənişi həyata keçirilməyə başlanmışdır. Bu da cənab Prezidentin sözügedən qəbildən olan insanlara yüksək diqqət və qayğısının bariz nümunəsidir.

Demək olar ki, istər Birinci, istərsə də İkinci Qarabağ müharibəsi qazilərinin və şəhidlərinin mənzil təminatı da yüksək səviyyədə həyata keçirilir. Artıq 2014-cü ilə qədər növbəyə duran şəhid ailələri və qazilərin hamısı mənzillə təmin olunub. Eyni zamanda, İkinci Qarabağ müharibəsi şəhid ailələrinin hamısına artıq mənzillər verilib. Birinci Qarabağ müharibəsi qazilərinin isə 2024-cü ilə qədər hamısının mənzillə təmin olunması barədə cənab Prezident göstəriş verib və hal-hazırda bu proses davam edir. İndiyə qədər ehtiyacı və tibbi göstərişi olan 7500-dən çox Qarabağ müharibəsi qazisinə minik avtomobilləri verilib ki, bunların da böyük əksəriyyəti Birinci Qarabağ müharibəsinin qaziləridir. Matorlu araba və ən yüksək səviyyədə, yəni, dördüncü nəsil rəqəmsal texnologiyalar əsasında işləyən protezlərlə təminatda da həm Vətən Müharibəsi, həm də Birinci Qarabağ müharibəsi qaziləri bu qayğı ilə əhatə olunmuşdur. Onların övladlarının təhsil haqlarının özəl ya dövlət universitetlərində oxumaqlarından asılı olmayaraq dövlət tərəfindən ödənilməsi, güzəştli şərtlərlə ipoteka kreditlərinin verilməsi, mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə torpaq sahələrinin ayrılması, kiçik biznes qurmaq məqsədilə istər Sahibkarlığa Kömək Fondundan güzəştli şərtlərlə biznes kreditləri verilməsi, istərsə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünəməşğulluq proqramına növbədənkənar cəlb olunması və ilk növbədə təmin olunması, sanatoriya, kurort müalicəsi, ölkə daxilində müalicəsi olmayanların xaricə göndərilməsi və dövlət büdcəsi hesabına müalicəsinin təmin edilməsi və digər sosial müdafiə tədbirləri mütəmadi olaraq həyata keçirilir. Və bu cənab Prezidentin, hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu qəbildən olan insanlara qayğısının, diqqətinin nününəsi olaraq bütün Azərbaycan cəmiyyətinə bir mesajdır ki, həmin insanlar bizim torpaqlarımızın işğaldan azad olunmasında, Vətənimizin qorunmasında, ərazi bütövlüyünün təmin olunmasında həyatlarını, sağlamlıqlarını itiriblər, xəsarət alıblar. Və cəmiyyətin hər bir üzvü də bu insanlara yüksək qayğı göstərməlidir. Yəqin ki, bu proses davam edəcək və bundan sonrakı dönəmlərdə də həmin insanların istər pensiyalarının, müavinət, təqaüdlərinin artırılması, istər mənzil-məişət şəraitinin yaxşılaşdırılması, istərsə də iş yerləri ilə təmin olunması istiqamətində dövlətin siyasəti davam edəcəkdir.

> "
>
> *Birinci Qarabağ müharibəsi qazilərinin isə 2024-cü ilə qədər hamısının mənzillə təmin olunması barədə cənab Prezident göstəriş verib və hal-hazırda bu proses davam edir*

***- Hazırda digər ölkələr kimi Azərbaycanda da sürətli inflyasiya prosesi gedir. Hökumətin antiinflyasiya tədbirlərini nə dərəcədə effektli hesab etmək olar? Sizcə, bu istiqamətdə əlavə olaraq daha hansı addımların atılmasına ehtiyac var?***

- Hesab edirəm ki, hökumətin antiinflyasiya tədbirləri öz nəticələrini verməkdədir. Artıq proqnozlaşdırılan kimi inflyasiyanın artım sürəti aşağı düşüb və ilin ikinci yarısında və ilin sonuna qədər inflyasiyanın daha aşağı tempdə olacağı gözlənilir. Buna görə də ərzaq məhsullarının, xidmətlərin qiymətinin artımı ilə əlaqədar hökumətin gördüyü tədbirlər, atdığı addımlar o cümlədən əmək haqlarının, təqaüdlərin artırılması, pensiyaların məbləğinin artırılması istiqamətində görülən işlər bundan sonra da davam edəcək. Əgər ehtiyac yaranarsa belə bir dövlət proqramı da qəbul oluna bilər. Və yaxud da cənab Prezidentin Sərəncamı ilə müvafiq qurumlara tapşırıqlar da verilə bilər. Xatırlayırsınızsa, ötən ilin oktyabrın 16-da ölkə Prezidentinin "Antiinflyasiya tədbirlərinin gücləndirilməsi və inflyasiya şəraitində vətəndaşların sosial rifahının qorunması" ilə bağlı Sərəncamı olmuşdu. Həmin Sərəncama müvafiq olaraq bu ilin əvvəlindən əmək haqlarının artırılması, pensiya, təqaüd və digər sosial ödənişlərin artırılması baş vermişdir. Amma hələlik proseslər hökumətin nəzarəti altındadır və hökumətin ilin sonuna qədər verdiyi proqnozlar özünü doğruldur. Və inflyasiyanın orta məbləği təxminən 12-13 faiz olacağı gözlənilir.

***- İnflyasiya fonunda minimum əməkhaqqı və pensiyaların yenidən artırılması gündəmdədirmi?***

- Azərbaycan qanunvericiliyinə görə, minimum əməkhaqqı ildə bir dəfə dövlət büdcəsi müzakirə olunarkən yaşayış minimumuna uyğun olaraq nəzərdə tutulur. Eyni zamanda, ehtiyac meyarı da həmin dövrdə qanunla müzakirə olunur. Hələlik bu məsələ gündəlikdə deyil. İstər yaşayış minimumunun, istər ehtiyac meyarının artırılması məsələsi yəqin ki, payızda dövlət büdcəsi müzakirə olunarkən gündəmə gələ biləcək.

***- Son günlər ölkədə koronavirusa yoluxanların sayı yenidən artır. Belə fikirlər var ki, payızda təkrar karantin rejimi tətbiq oluna bilər. Sizcə, yoluxma tendensiyası bu şəkildə davam edərsə yenidən sərt karantin barədə qərar qəbul oluna bilərmi?***

- Təəssüf ki, bütün dünyada koronavirus pandemiyası hələ də davam edir. Azərbaycanda da son ay ərzində yoluxma hallarının artması müşahidə olunur. Düzdür, indi yoluxmaya səbəb olan geniş yayılmış omikron ştammı nisbətən yüngül keçir, fəsadları azdır, ölümə nadir hallarda rast gəlinir. Amma bu heç birimizi arxayın salmalı deyil. Hesab edirəm ki, vaksinasiya prosesi bundan sonra da davam etməlidir. Payızda soyuqların düşməsi ilə əlaqədar olaraq hansı tədbirlərin görülməsini də yəqin ki, Operativ Qərargah özü müəyyən edəcəkdir.

✍ ***Sevinc***

# Müharibədən bezənlər

***Bu** ilin fevral ayında Rusiya ordusu Ukrayna torpaqlarına hərbi təcavüzə başlayandan sonra, zəngin ruslar heç nə düşünmədən var-dövlətlərini pula çevirib ölkədən ayrılmağa başladılar. Necə ki, rus oliqarxlar lap əvvəldən xarici banklarda saxladıqları pulla, vətənlərində müharibədən dolayısı çətin vəziyyətin yaranmasına baxmayaraq, öz keflərini sürürlər. Bir halda ki oliqarxlar, eləcə də Rusiyanın yüksəkrütbəli məmurları xalqdan oğurlanan vəsaitlə xaricdə səfa çəkirlər, o zaman sıravi ruslar alın təri ilə qazandıqları pulu niyə müharibənin şərtləri daxilində boş yerə havaya sovursunlar? Qeyd edək ki, ruslar heç vaxt özlərini ağır həyata qurban verməyiblər.*

## Təhlil

Əlbəttə, deyə bilərsiniz ki, II Dünya Müharibəsində ruslar da digər Sovet İttifaqı əhalisi kimi, dözülməz məşəqqətlər yaşayıblar. Düzdür, amma bu bir həqiqətdir ki, o dövrdə dəmir sərhədləri aşmaq elə də asan deyildi və üstəlik, kommunistlər insanları soyub-taladıqları üçün kimsənin xaricə aparmağa bir şeyi qalmamışdı.

Bu arada, 1917-ci ildə Rusiya monarxiyasının süqutundan və bolşeviklərin hakimiyyəti ələ keçirməsindən sonra, “ağ mühacirət” kimi tanınan proses tarixə öz damğasını vurub. Müxtəlif hesablamalara görə, o dövrdə 5 milyonadək insan keçmiş Rusiya imperiyasının ərazisini tərk edib. Özü də bu insanların mütləq əksəriyyəti az-çox pullular olublar. Yüz ildən sonra tarix yenidən təkrarlanır. Miqrasiya səbəbləri və mühacirlərin motivləri ötən əsrin hadisələrindən xeyli fərqli olsa da, Rusiya vətəndaşlarının ölkədəngetmə nisbətləri müqayisə edilə bilər. Rusiyanın Ukraynaya qarşı müharibəyə başlaması ilə onminlərlə rus “vaxtından artıq qalmaq” və ya yeni yerdə məskunlaşmaq üçün “vizasız” ölkələrə uz tuturlar.

“Google Trends” və “Yandex Wordstat” xidmətlərinin məlumatına görə, müharibənin ilk başında - fevralın son günləri və martın ilk günlərində ruslar Rusiyanı tərk etmək barədə məlumat axtarırdılar.

Maraqlıdır, ruslar əsasən hansı ölkələrə pənah aparırlar? “Google Trends” və “Yandex Wordstat”a görə, ruslar daha çox coğrafi mənada Rusiyaya daha yaxın ölkələrlə maraqlanıblar. Bu ölkələr, əsasən, Türkiyə, Litva, Latviya, Estoniya, Gürcüstan, Ermənistan, BƏƏ və sair olub. Mütəxəssislərin fikrincə, rusların daha yaxın Avropa dövlətlərinə getmək istəməməsi Avropa İttifaqı ölkələrinin Rusiyadan olan aviaşirkətlərə qarşı tətbiq etdiyi irimiqyaslı sanksiyalar və onun vətəndaşlarına giriş məhdudiyyətləri qoyması ilə bağlı ola bilər.

Müxtəlif mənbələrin hesablamalarına görə, fevralın 24-dən üzübəri 800 minədək insan Rusiyanı tərk edib. Helsinki Universiteti və “OK Rusları” layihəsinin sorğusuna əsasən, miqrantların 57 faizinin yaşı 35-dən aşağıdır. Düşünülür ki, bu yaşda olan kişi miqrantlar müharibədə döyüşmək istəmədikləri üçün Rusiyadan qaçırlar. Bundan əlavə, miqrantların 68 faizi Rusiyanı “uzun müddətə və ya daimi olaraq” tərk edib.

Miqrasiyanın nəticələrinə görə, ruslar yaşamaq üçün xaricdə mülk almağa başlayıblarsa, bu o deməkdir ki, onlar özləri ilə xaricə ən azı 50-60 min dollar aparıblar. Bu da o deməkdir ki, rusiyalı miqrantlar Rusiyadan ortalama 50 milyard dollar çıxarıblar. Əlbəttə, sərvətinin həcmi 1 milyon dollardan çox olan 15 mindən artıq rus milyonçunun miqrasiyası bu rəqəmə daxil deyil.

Bu dövrdə rusiyalı miqrantların qəbuluna görə lider ölkələr 25 faizlə Türkiyə, 23 faizlə Gürcüstan və 15 faizlə Ermənistandır. Rusiya miqrasiya dalğasının alıcı ölkələr üçün xoş nəticəsi əmək resurslarının və vergi ödəyicilərinin axını olub. Digər tərəfdən, belə genişlənmə mənzil kirayəsi və mənzil qiymətlərinin kəskin artmasına gətirib çıxarıb.




### Dar günün güvənli dostu

**“Bloomberg” yazır ki, 2022-ci ilin iyun ayında Türkiyədə xaricilərə ev satışı ötən ilin eyni dövrü ilə müqayisədə 80 faizdən çox artıb. Səbəb isə ruslardan tələbin artması olub. Belə ki, ruslar yanvar ayından bəri Türkiyədə 6 min ev alıblar. Bu isə onları əcnəbilər arasında ən böyük alıcıya çevirib. Bundan əvvəl birincilik İran və İraq vətəndaşlarına məxsus olub.**

Ruslardan mənzillərə tələbat daha da artıb. Türkiyə Statistika Təşkilatının məlumatına görə, təkcə aprel ayında əcnəbilərə daşınmaz əmlak satışı mart ayı ilə müqayisədə 186,6 faiz çoxalıb. İstanbul “Golden Sign” daşınmaz əmlak şirkətinin qurucusu Gül müştəriləri haqqında “Bunlar varlı ruslardır, amma oliqarxlar deyil” deyir.



## Zəngin ruslar Rusiyanı tərk edirlər

“Turk.Estate” analitiklərinin məlumatına görə, 2022-ci ilin yanvar-iyun ayları ərzində rusların Türkiyədə daşınmaz əmlak almağa marağı 2021-ci ilin eyni dövrü ilə müqayisədə 130 faiz, 2020-ci ilin birinci yarısı ilə müqayisədə isə 177 faiz artıb.

Gülün sözlərinə görə, bəzi ruslar Türkiyədə hətta 3-5 mənzil alırlar. Onlar əməliyyatlar aparmaq üçün müxtəlif ödəniş vasitələrindən istifadə edirlər. “Biri nağd pul gətirir, biri bank hesabı açır, biri də qızıl gətirir”, - Gül deyir.

Xaricilər üçün türk kvadratmetrlərinə investisiyanın cəlbediciliyi lirənin daimi devalvasiyası və yüksək inflyasiya ilə dəstəklənir. Son bir ildə lirə dollar qarşısında 48 faiz ucuzlaşıb, istehlak qiymətləri isə 80 faiz artıb. Mənzillərə tələbin gözlənilməz artması onların bahalaşmasına səbəb olub. Belə ki, 2022-ci ilin fevralından iyul ayına qədər Türkiyədə mənzillərin satış qiyməti orta hesabla 20 faiz artıb.

Əcnəbilər arasında ən populyar yer İstanbuldur. Məlumata əsasən rusların 45 faizi yaşamaq üçün İstanbulu, 21 faizi isə Antalyanı seçir. Rusların Türkiyəyə üz tutma səbəbləri bu ölkədə bazarların Avropa ölkələrindəkindən xeyli ucuz olması, Rusiyaya coğrafi yaxınlıq, hava nəqliyyatının fasiləsiz işləməsi, ən əsası isə müharibə başlayandan sonra Qərb dünyası embarqolar tətbiq etdiyi halda, Türkiyənin Rusiya ilə birbaşa prezidentlər səviyyəsində, yaxın tərəfdaşlığa sadiq qalmasıdır.

### Yenə yaxın qonşu

Rusiya vətəndaşlarının 23 faizinin üz tutduğu ölkə Gürcüstandır. Çox qəribədir ki, Rusiya yaxın keçmişdə Gürcüstana işğalçı hücumu, Abxaziya ilə Cənubi Osetiya muxtariyyətlərini defakto işğal etməsi gürcülərdə bu ölkəyə nifrəti çoşdursa da və iki ölkə arasında neçə illərdir heç bir əlaqə olmadığı halda, rusiyalılar yenə də yaşamaq üçün Gürcüstana sığınmaq qərarına gəliblər. Məlumata görə, il ərzində Gürcüstana 120 min miqrant daxil olub. Onların Rusiya, Belarus və Ukrayna vətəndaşları olduğu bildirilir. Amma onlar milliyyətcə ruslar, belaruslar, ukraynalılardır, yoxsa bu üç ölkədə yaşayan etnik gürcülər, bu haqda heç nə deyilmir.

Xaricilərin axını Gürcüstanda da mənzil qıtlığına və kirayə qiymətlərinin artmasına səbəb olub. “TBC Capital” investisiya şirkətinin araşdırmasına görə, aprel ayında Tiflisdə daşınmaz əmlakın icarə qiyməti ötən illə müqayisədə 48 faiz artıb.

Tələb və kirayə qiymətlərində əsas artım Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra - mart ayında baş verib. Məlumata görə, müharibədən cəmi bir ay sonra Gürcüstanın paytaxtında mənzillərin kirayə qiyməti 20,1 faiz artıb. Gürcüstan Bankının analitik hesabatında qeyd olunur ki, mənzil kirayəsi qiymətlərindəki yaz artımı bütün müşahidələr tarixində ən kəskin artım olub. İcarəyə götürmə indeksi fevraldan may ayına kimi sürətlə yüksəlib.

Eyni zamanda, mənzil qiymətləri indeksi daha çox artıb. Milli Statistika Xidmətinin məlumatına görə, 2022-ci ilin ikinci rübündə Tiflisdə mənzillərin qiyməti 2021-ci illə müqayisədə 8,2 faiz yüksəlib. Mənzillərin kirayə qiymətləri indeksinin artması daşınmaz əmlak bazarının kapitallaşmasının əhəmiyyətli dərəcədə artmasına səbəb olub.

### Kasıblar Ermənistana, zənginlər BƏƏ-yə

**İqtisadi cəhətdən Rusiya ilə bağlı olan Ermənistan “köçürücülər” üçün əsas istiqamətlərdən birinə çevrilib. Daşınmaz əmlak agentliyinin meneceri Vahe Danielyanın sözlərinə görə, Ukrayna, Belarus və Rusiyadan gələn müştərilərin dalğası İrəvanda mənzillərin kirayə qiymətinin 30 - 40 faiz artmasına səbəb olub.** Hətta bəzi mülk sahibləri mənzilləri baha qiymətə kirayə vermək üçün kirayəçiləri ilə mövcud icarə müqavilələrini pozurlar. Daşınmaz əmlakın dəyəri də artır. 2021-ci illə müqayisədə mənzil bazarında qiymət orta hesabla 20 faiz, satışın həcmi isə 10 faiz artıb.

### Onu da qeyd edək ki, Ermənistana köçən miqrantlar əsasən Rusiyaya iş dalıyla gedən ermənilərdir

**Rusların axın etdiyi ölkələrdən biri də Özbəkistandır. 2022-ci ilin ikinci rübü üzrə daşınmaz əmlak bazarının icmalında Özbəkistan Mərkəzi Bankı mənzil kirayəsi bazarında aktivlik indeksinin artdığını qeyd edib.**

Tənzimləyici bunu Rusiya və Belarusdan “əhəmiyyətli turist axını” ilə izah edir. Daşkənddə daşınmaz əmlakın dəyəri və onun icarə haqqı Ukraynada böyük müharibə başlayandan sonra artmağa başlayıb.

> *Bəzi ruslar Türkiyədə hətta 3-5 mənzil alırlar. Onlar əməliyyatlar aparmaq üçün müxtəlif ödəniş vasitələrindən istifadə edirlər*

> *Xaricilərin axını Gürcüstanda da mənzil qıtlığına və kirayə qiymətlərinin artmasına səbəb olub*

Mənzillərin kirayə qiyməti may ayında 1,7 faiz, iyunda isə 2,1 faiz artıb. İkinci rübdə ev alğı-satqı müqavilələrinin sayı 81,9 minə çatıb ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 6,2 faiz çoxdur.

Məlumat üçün qeyd edək ki, Sovet dönəmində bütün respublikalarda olduğu kimi, Özbəkistanda çox sayda rus yaşayıb və bu gün də onların sayı bu ölkədə az deyil. Bütün hallarda, son iki onildə Özbəkistandan yüz minlərlə rus Rusiyaya miqrasiya edib. Çox güman ki, az da olsa, bu gün Özbəkistana gələn ruslar ya vaxtilə oradan gedənlər, ya da bu qardaş ölkədə qohumları yaşayanlardır. Rusların, xüsusilə də zəngin olanların yaşamaq üçün seçdiyi ölkələrdən biri də Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ). “Betterhomes konsaltinq” şirkətinin hesabatına görə, ilin birinci yarısında BƏƏ-də yaşayış daşınmaz əmlakı ilə əməliyyatların həcmi 60 faiz, satılan daşınmaz əmlakın dəyəri isə 85 faiz artıb. Dubayda ən böyük daşınmaz əmlak alıcıları siyahısında ruslar dördüncü yerdədirlər. Məlumata əsasən rusiyalı əmlak alan miqrantların sayı 164 faiz yüksəlib.

Qeyd edək ki, BƏƏ-də ən yaxşı mənzillərin qiyməti 100 min dollardan başlayır.

Dubaydakı “Modern Living” daşınmaz əmlak agentliyinin baş direktoru Tiaqo Kaldas rusların maraqlarını təmin etmək üçün üç rusdilli agenti işə götürüb. Onun sözlərinə görə, Rusiya Federasiyasından alıcıların sayı on dəfə artıb.

Araşdırmalara tarixən Rusiya ilə sıx əlaqələri olan Azərbaycanın adı keçmir. Amma təəccüblə qeyd oluna bilər ki, iqtisadi-sosial, hətta ictimai-hərbi vəziyyətinə görə Azərbaycandan daha pis vəziyyətdə olan Gürcüstana və Ermənistana miqrasiya axını olduğu halda niyə Azərbaycana gələn yoxdur. Bunun bir səbəbi odur ki, Azərbaycan uzun müddətdir quru sərhədlərini bağlı saxlayır və bu ölkəyə yalnız baha qiymətə bilet alaraq təyyarə ilə gəlmək mümkündür. Çox güman ki, miqrant qəbulunda bəzi çətinliklər də mövcuddur. Hər halda, Azərbaycanın adı araşdırmalarda keçmir.

*Vüsal Tağıbəyli*

---



■ **“Qarabağ” Çempionlar Liqasının pley-off mərhələsində Çexiyanın “Viktoriya” klubu ilə qarşılaşacaq.**

Plzen təmsilçisinin baş məşqçisi Mixal Bilek III təsnifat mərhələsinin “Şerif”i məğlub etdikləri cavab görüşündən sonra mətbuat konfransında açıqlama verib. O, “Qarabağ” haqda məlumatının olmadığını deyib: “Daha çox “Ferentsvaroş”la oynamaq istəyirdim. “Qarabağ” haqda o qədər də məlumatım yoxdur. Macarıstanda əla nəticə qazandılar. Bu, “Qarabağ”ın yüksək keyfiyyətindən xəbər verir. Bizi asan heç nə gözləmir. Yəqin ki Bakıda hava çox isti olacaq. Böyük bir uğur əldə etmək üçün iki oyunumuz qalıb. Bunun üçün mübarizə apracağıq. Məqsədimiz qrup mərhələsinə düşməkdir”.



■ **Böyük Britaniya və Avropa İttifaqı (Aİ) Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı fonunda tətbiq etdiyi sanksiyalar çərçivəsində bu gündən etibarən Rusiya kömürünün idxalını dayandırır.**

Bu barədə “TASS” məlumat yayıb. Bildirilib ki, bu məhdudiyyətlər Rusiya iqtisadiyyatına “zərər” vurmaq məqsədini daşıyır. Qeyd edək ki, Ukraynada hərbi əməliyyata görə ABŞ və Aİ Rusiyaya qarşı sanksiyalar tətbiq edib. Bir çox rus diplomat və sahibkarın adı “qara siyahıya” salınıb. Rusiya bankları beynəlxalq ödəniş sistemlərindən ayrılıb, eləcə də bir çox beynəlxalq şirkətlər Rusiyada fəaliyyətini dayandırıb.



■ **Azərbaycan Turizm və Menecment Universiteti publik hüquqi şəxsə çevrilib. Bu barədə Nazirlər Kabineti məlumat yayıb.**

Nazirlər Kabinetinin qərarına əsasən, Azərbaycan Turizm və Menecment Universiteti Dövlət Turizm Agentliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Turizm və Menecment Universitetinə çevrilmə yolu ilə yenidən təşkil ediləcək. Universitetin yeni Nizamnaməsi də təsdiqlənib. Nizamnaməyə görə, universitetin fəaliyyətinə nəzarəti Agentlik, həmçinin bu nizamnamə ilə müəyyən edilmiş qaydada universitetin idarəetmə orqanları həyata keçirirlər.



■ **”Moody's” SOCAR-ın reytinqini Ba2-dən Ba1 səviyyəsinə yüksəldib, proqnozu müsbətdən stabilə dəyişib.**

”Moody's” bu gün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) CFR və yüksək təminatsız reytinqi daxil olmaqla, reytinqini Ba2-dən Ba1-ə yüksəldib. Eyni zamanda, ”Moody's” SOCAR-ın əsas kredit qiymətləndirməsini (BCA) b1-dən ba3-ə və defolt reytinqinin (PDR) ehtimalını Ba2-dən Ba1-ə yüksəldib. Bildirilib ki, bugünkü reytinq suveren reytinq fəaliyyətinə uyğundur və SOCAR-ın dövlətlə güclü kredit əlaqələrini, eləcə də Azərbaycanın əməliyyat və makroiqtisadi mühitinə əhəmiyyətli dərəcədə bağlılığı əks etdirir.



■ **“Gözdə olan çəplik heç bir damcı dərmanla düzəlmir”. Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Nigar Həsənova deyib. Onun sözlərinə görə, çəpliyin bərpası əməliyyatla və eynəklə mümkündür:**

“Təcili çəplik əməliyyatı yoxdur. Bu planlı əməliyyatdır. On gün gec etsəniz, heç bir əlavə ağırlaşma olmaz”. “Bəzən uşaqlara gözləri yaxşı görsün deyə on gün kök şirəsi verirlər, ancaq bu ziyandır.

Bu, hətta qaraciyərin fəaliyyətinə zərərdir. Biz valideynlərə məsləhət görürük ki, meyvə-tərəvəz, vitaminli qidalar versinlər. Hər hansı qidanı çox verməklə görməni yaxşılaşdırmaq mümkün deyil. Həmçinin göz idmanlarından yüksək nəticə gözləmək olmaz.



■ **Daxili İşlər Nazirliyi (DİN) Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevi saxlayan yol polislərinin işdən çıxarılması ilə bağlı iddialara münasibət bildirib.**

DİN-in Mətbuat Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev “Report”un sorğusuna cavab olaraq bildirib ki, yol polislərinin daxili işlər orqanlarından xaric olunması iddiaları əsassızdır. “Bu məlumatlar həqiqəti əks etdirmir”, - DİN rəsmisi vurğulayıb.

Qeyd edək ki, bir neçə gün öncə Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevin idarə etdiyi avtomobilin saxlanmasını əks etdirən görüntülər yayılıb.

# Türkiyə Ermənistanla sərhədləri bu halda açacaq

***Ermənistanın 44 günlük müharibədən sonra yenə də torpaq iddiası, müharibə ritorikası ilə çıxış etməsi Qarabağda və dövlət sərhədində törətdiyi hərbi təxribatlar regiondakı geosiyasi vəziyyəti qeyri-stabil, gərgin olaraq saxlamaqdadır. Ermənistan 2020-ci ildə Rusiyanın vasitəçiliyi sonadək məhv edilməkdən qorunaraq üçtərəfli atəşkəs sazişinə imza atsa da, iki ildir götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınır. Türkiyə Cümhuriyyətinin bu prosesdə həyata keçirdiyi barışdırıcılıq missiyası, eləcə də çağırışlar ermənilər və yaxud onlara cəsarət verən tərəflərin maraqları səbəbindən yerinə yetirilmir. "Həftə içi"nə müsahibə verən Türkiyənin Beynəlxalq İnternet Media və Kommunikasiya Nəşriyyatlarının Prezidenti (UİMDER) Serdar Akyol maraqlı fikirlər söyləyib.***



**Serdar Akyol,**
Türkiyənin Beynəlxalq İnternet Media və Kommunikasiya Nəşriyyatlarının Prezidenti

## Müsahib

***- Son Putin Ərdoğan görüşü Cənubi Qafqazda mövcud vəziyyətə hansı təsirini göstərə bilər və bu fonda Qarabağda gedən hazırkı prosesi necə dəyərləndirirsiniz?***

- Azərbaycan-Rusiya prezidentlərinin Ermənistanın baş naziri ilə 2020-ci il noyabrın 10-da imzaladıqları üçtərəfli atəşkəs sazişi Ermənistan-Azərbaycan münaqişəsinin başa çatmasını rəsmən təsdiqləyib. Ermənistan imzalanan birgə sazişin şərtlərini bu günədək yerinə yetirməyib. Laçın dəhlizi açılsa da, Zəngəzur dəhlizi hələ də açılmayıb və erməni silahlıları Qarabağdan geri çəkilməyiblər. Həmçinin sərhəddə və Qarabağda atəşkəsi mütəmadi pozurlar. Bütün bunlar Ermənistanın sülh sazişindən imtina etməsi deməkdir.

Qeyd edək ki, Azərbaycan-Ermənistan dövlət sərhədində baş verən hadisələr Ermənistanın qəsdən vəziyyəti gərginləşdirmək üçün atdığı ilk addımlar deyildir. Soçidə keçirilən görüşün mütləq əhəmiyyəti olacaq. Proseslərin hansı istiqamətdə gedəcəyini demək çətindir. Liderlərin təkbətək görüşündən sonra, geniştərkibli görüşün keçiriləcəyi bildirilib. Ədalətli qərardan söhbət gedirsə, ədalət Azərbaycan tərəfindədir və ümid edirik, xeyrimizə olacaq.

***- Regionda yaradılan gərginliklə yanaşı, bu günlərdə Londonda Azərbaycan Səfirliyinə qarşı radikal dini qrupların hücumunun arxasında hansı maraqlı güclər dayanıb və məqsədləri nədir? Bu cür əks-təsirlər nəyə hesablanır?***

- Bildiyimiz kimi, bununla bağlı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallıqlarının Azərbaycan Səfirliyindəki müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb, vəkil baş vermiş hadisə ilə bağlı narahatlıq duyduğunu dilə gətirib. Bu narahatlıq baş vermiş hadisəyə əngəl deyildir. Hər bir ölkə həmin ölkədə yerləşən səfirliklərin təhlükəsizliyini təmin etməyə borcludur. Baş vermiş hadisə hər iki ölkənin - həm Böyük Britaniya, həm də Azərbaycan dostluğu, birlik və münasibətlərində şübhə duyğusu yarada bilər.

Türkiyənin xarici işlər işlər naziri Mövlud Çavuşoğlu qardaş ölkəmiz Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng edərək, Azərbaycanın yanında olduğunu dilə gətirdi. Biz də Türkiyədə öz mətbuat orqanlarımız olan www.sonnoktahaner.com və www.koridorgazetesi.com xəbər portallarımızda bu hadisəyə öz sərt mövqeyimizi bildirdik.

Daha həssas tərəf isə Bayrağımıza edilən hörmətsizlik oldu. Bayrağımız deyirəm, çünki Azərbaycanın Bayrağı demək, Türkiyənin Bayrağı deməkdir, Türkiyənin Bayrağı demək də Azərbaycan Bayrağı deməkdir. Kimliyindən və vəzifəsindən asılı olmayaraq, bayrağa pis mənada əl uzatmaq istəyən hər kəsin əli qırılmalıdır ki, bu, digərlərinə də ibrət olsun. Şəhidlərimizin qanları bahasına qorunan Bayrağa hər kəs xüsusi hörmət etməlidir. Bu, istək məsələsi deyil, bu borcdur. Bu hadisəni şiddətlə qınayırıq və Bayrağa əl uzadanların cəzalandırılmasını tələb edirik.

> *"Biz çətin zamanlarda sınaqlardan keçmiş qardaş ölkəyik*

***- Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, tanınmasında Türkiyə ilə birlikdə aparılan informasiya təbliğatımız nə dərəcədə təsirə malikdir? Azərbaycanla bağlı dünya güclərinin, təşkilatlarının hazırkı münasibəti nədir?***

- Təbiidir ki, dünya güclərinin və təşkilatlarının Azərbaycana hazırda olan maraq və münasibətləri əvvəlki dövrlərlə müqayisədə kəskin şəkildə fərqlənir. Azərbaycan Vətən müharibəsi zamanı regionda ədaləti bərpa etməklə yanaşı, 30 il işğal altında olan torpaqlarını almaqla dünyaya öz gücünü layiqincə göstərməyi bacardı. Dünya dövlətləri bu gücü görməmələri üçün kor olmalı idilər. Bundan əlavə Azərbaycan prezidenti cənab İlham Əliyevlə keçirilən beynəlxalq əhəmiyyətli görüşlər, səfərlər, beynəlxalq konfranslar, simpoziumlar Azərbaycana olan diqqət və marağın ən bariz göstəricilərindəndir. Bu gün Azərbaycana səfər edən müxtəlif dünya ölkələri rəhbərləri, beynəlxalq təşkilatın liderləri Azərbaycanda maraqlı olduqlarını dilə gətirib və regionda Azərbaycanın olduqca əhəmiyyətli yeri olduğunu dəfələrlə vurğulayıblar.

Türkiyə ilə münasibətlərə gəlincə, biz çətin zamanlarda sınaqlardan keçmiş qardaş ölkəyik. Bu birlik dünyaya bir nümunədir desək, yalan olmaz. Bizə düşən Azərbaycan və Türkiyə vətəndaşları olaraq, istər siyasi şəkildə, istər sosial, təhsil ya da media yolu ilə bu dostluğun dəyərini qorumaq və gələcək nəsillərə çatdırmaqdır.

***- Məlumdur ki, 30 il torpaqlarımız erməni işğalında qaldı. Torpaqlarımıza, insanlarımıza qarşı soyqırımı törətdilər. Bu gün qeyri-maddi irsin qoruyucusu olan YUNESKO kimi beynəlxalq qurumlar Azərbaycanın dağıdılmış şəhər və kəndlərində abidələrin, tarixi irsimizin ermənilər tərəfindən necə məhv edildiyini öyrənmək üçün Azərbaycanın çağırışlarına səs vermirsə, bu nəyi ifadə edir? Yaxud, dünya Azərbaycana dəyən zərərin ödənilməsi üçün nə edir?***

- Qarabağ işğaldan azad edildikdən sonra, orada olan tarixi və mədəniyyət nümunələrinə, dini abidələrə qarşı ermənilərin etdiyi vandalizm dünyaya göstərilsə də, dünya ölkələri buna qarşı laqeydliyini hələ də davam etdirir. Buna qarşılıq Azərbaycanın paytaxtı Bakıda yerləşən erməni kilsəsinin qorunmasını nümunə göstərə bilərik. Azərbaycan da intiqam üçün o kilsəyə zərər vura bilərdi. Mədəniyyətə dəyər verən ölkə kimi Azərbaycan bu addımı atmadı. Elə bir vandalizm məhz erməniyə yaraşardı. Ağacları kəsmək, evlərin qapı pəncərəsini çıxarıb aparmaq, məsciddə donuz otarmaq və s.

Düşmən də olsan düşməm bildiyin ölkənin mədəniyyətinə, dininə hörmət etməyi bacarmaq özü də bir mədəniyyətdir. Əgər bir çox dünya ölkələri Azərbaycanın işğal olunmuş ərazilərindəki abidələrə qarşı olan erməni vandalizminə qarşı hələ də susursa, deməli, bununla bağlı daha çox siyasi mübarizə aparmalı, səsimizi və sözümüzü daha da yüksəltməliyik.

***- Türkiyənin Ermənistanla sərhədini açması üçün hansı şərtlər ödənilməlidir? Niyə Ermənistan türklərlə barışığa, sülhə gəlmir və indiki vəziyyətdə Ermənistan danışıqlardan qaçarsa, onu regionda nə gözləyə bilər?***

- Böyük ehtimalla, Türkiyə mediasında bu günlərdə Türkiyə və Ermənistan arasında sərhədlərin açılması barədə olan yalnış xəbərlərdən məlumatınız var. Əslində, sərhədlər hər iki ölkədə üçüncü ölkə vətəndaşları üçün açılıb, yəni hələ də Ermənistanla Türkiyə arasında sərhəd bağlıdır. Bizim Ermənistan tərəfi ilə sərhədlərimizin açılması Azərbaycanın Ermənistana qarşı olan tələblərin qəbul edilməsinə bağlıdır. Cümhur rəhbəri Rəcəb Tayyib Ərdoğan bunu dəfələrlə qeyd edib. Tələblərə gəlincə, rəsmi Bakı Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması, qoşunlarını Qarabağdan çıxarması, eləcə də Laçın və Zəngəzur dəhlizi məsələsinin həllinə çalışılmasıdır. Yəni Azərbaycanın bu tələbləri yerinə yetirildikdən sonra, Türkiyə Ermənistanla sərhədləri açacaq. Ermənistanın danışıqlardan qaçmasına gəlincə, bu, heç də Ermənistanın xeyrinə olmaz. Regionda Ermənistanı nəyin gözləyəcəyinə cavab kimi bunu zaman göstərəcək. Ümid edirik, şərtlər can Azərbaycanın, həm də Türkiyənin xeyrinə xidmət edəcək.

***✍ Tahirə Qafarlı***

**Bu gün Azərbaycanda orta məktəblərə, məktəbəqədər hazırlıq bölmələrinə, bağçalara qəbul elektron qaydada aparılır. Reallıqda bu sistem valideynlərin işini yüngülləşdirmək məqsədi daşısa da, əvəzinə onların işini xeyli artırıb. Valideynlərin ən çox rastlaşdığı problem isə yaşadıqları ərazidə yerləşən təhsil müəssisələrində, bağçalarda boş yer tapa bilməmələridir.**

# Valideynlərin məktəb dərdi



## Təhsil

Belə ki, elektron qaydada müraciət edənlər yaşadıqları əraziyə yaxın məktəbləri seçirlər. Ancaq nədənsə, həmin məktəbdə "yer olmur". Aidiyyəti qurumlar isə daha uzaq ərazidə yer olduğunu bildirir və valideynlərə övladlarını oraya yerləşdirməyi uyğun bilir.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Elşən Qafarov da bu istiqamətdə problemlərin olduğunu təsdiqləyir.** Onun sözlərinə görə, qəbulun elektron qaydada aparılması vətəndaşların təhsil hüququnu pozur: "Azərbaycan qanunvericiliyinə əsasən, hər bir şəxsin hüququdur ki, lisey, gimnaziyalar istisna olmaqla, uşağını hansı məktəbdə istəyirsə, o məktəbdə də oxutdursun. Elektron qəbul şagirdlərin istədikləri məktəbdə təhsil almaq hüququnu məhdudlaşdırır. Eyni zamanda, proses elektron qaydada aparıldığından xüsusi təhsilə ehtiyacı olan uşaqlarla bağlı vəziyyət tənzimlənmir. Qeydiyyat elektron qaydada baş verdiyindən valideyn də müxtəlif yollarla ərazidə olan poliklinikadan uşağının sağlam olmasına dair arayış alır. Amma dərslər başlayanda həmin uşaq onunla bərabər təhsil alan uşaqların öyrənmələrinə mane olur. Yəni, bu sistem tənzimlənməlidir və vətəndaşların təhsil hüququnu məhdudlaşdıran amillər aradan qaldırılmalıdır".

Ekspert vurğulayıb ki, valideynlər tərəfindən yaşadıqları ərazidə məktəb və bağçalarda boş yer olmaması ilə onlara da çoxsaylı müraciətlər daxil olur: "Bu çox ciddi problemə çevrilib. Hazırda ölkədə 4432 məktəb var, onun təxminən 2400-dən çoxu tam orta məktəbdir. Mərkəzi şəhərlərdə yerləşən məktəblər iki, bəzən üç növbəli fəaliyyət göstərir. Yəni, şagird sıxlığı mövcuddur. Baxmayaraq ki, ölkədə 3800-dən artıq məktəb yeni tikilib və ya əsaslı təmir olunub. Hətta ölkə Prezidenti 2019-cu ildə təkcə Bakı şəhərində yeni tədris korpuslarının tikilməsinə 47 milyon manat vəsait ayırıb. Amma yenə də ən böyük problem Bakı, Abşeron və Sumqayıt şəhərlərindədir. Eyni zamanda, digər mərkəzi şəhərlərdə də sıxlıqla bağlı problem var.Ümumiyyətlə, bu problem təkcə Naxçıvanda həllini tapıb. Naxçıvanın 211 məktəbi var. Orada iki növbəli məktəb anlayışı yoxdur. Hesab edirəm ki, bununla bağlı xüsusi dövlət proqramı qəbul olunmalıdır və iri şəhərlərdə yeni məktəblər, yaxud da məktəb korpusları tikilməlidir. Çünki iki, üç növbəli təhsil prosesində hansısa inkişafdan danışmaq yersizdir".

> *"Mərkəzi şəhərlərdə yerləşən məktəblər iki, bəzən üç növbəli fəaliyyət göstərir*

> *Naxçıvanın 211 məktəbi var, orada iki növbəli məktəb anlayışı yoxdur*



Mütəxəssis onu da vurğulayıb ki, bu ümumtəhsil müəssisələrinin birinci sinifinə təxminən 120 min uşağın qəbul olunması proqnozlaşdırılır: "Bu statistika hər il dəyişir. Təxminən 120 minə yaxın uşağın birinci sinifə qəbul olacağını gözləyirik. Məktəbəhazırlıq qruplarına isə təqribən 90 min uşağın qəbul ediləcəyi proqnozlaşdırılır. Bağçalarla bağlı vəziyyət isə bir qədər fərqlidir, burada problem böyükdür. Hazırda bağça yaşlı uşaqların sayı 600 mindir. Ümumilikdə ölkədə 1950 bağça var. Onların tutumu da 18 minə qədərdir. Amma bu il ortalama 3-4 min uşağın bağçalara qəbulu proqnoz edilir".

***✍ Sevinc***

# OPEC ölkələri neft hasilatını azaldacaq




**ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) OPEC (Neft İxrac Edən Ölkələr Təşkilatı) ölkələrinin 2022-2023-cü illər üçün gündəlik xam neft hasilatı üzrə proqnozunu azaldıb.**

"APA-Economics"in EIA-nın aylıq hesabatına istinadən verdiyi məlumata görə, gələn il OPEC ölkələri üzrə gündəlik ortalama neft hasilatının 29,04 mln. barel olacağı proqnozlaşdırılır ki, bu da əvvəlki proqnoz göstəricidən 0,31 mln. barel azdır. Hesabata əsasən, bu il OPEC ölkələri üzrə gündəlik ortalama neft hasilatı 28,47 mln. barel olacaq. Bu, əvvəlki proqnozdan 0,21 mln. barel azdır. Qeyd edək ki, ötən il OPEC ölkələri üzrə gündəlik ortalama neft hasilatı 26,28 mln. barel olub. 2020-ci ildə OPEC üzrə gündəlik neft hasilatı 25,6 mln. barel təşkil edib, 2019-cu ildə isə 29,27 mln. barelə bərabər idi. Beləliklə, EİA məlumatlarını nəzərə alaraq, belə bir qənaətə gəlmək olar ki, OPEC ölkələri neft hasilatı üzrə koronavirus infeksiyası pandemiyasından əvvəlki səviyyəyə gələn ildə də çata bilməyəcək.

# "Aztelekom" telekommunikasiya xidmətlərinin tarifini dəyişdirib

**"Aztelekom" MMC müasir dövrün texnoloji üstünlüklərinə əlçatanlığı təmin etmək məqsədilə GPON (Gigabit Passive Optical Network) texnologiyasının tətbiqi istiqamətində telekommunikasiya xidmətlərinin tarifini dəyişdirib.**

MMC-dən hafta.az-a bildirilib ki, istehlakçıların yüksək internet sürətinə artan tələbatı və texnoloji tələblər nəzərə alınaraq "Aztelekom" 4 mbit/s və 10 mbit/s tariflərini ləğv edərək abunəçilərin daha sürətli internetə keçidini təmin edir.

Bu məqsədlə GPON 4 mbit/s və 10 mbit/s tariflərinin istifadəçiləri 2022-ci il avqustun 6-dan müvafiq olaraq 15 mbit/s və 30 mbit/s tarif paketinə köçürülür. Bu dəyişikliklə aşağı sürət tarifləri ləğv edilərək daha yüksək sürətə keçid təmin olunur ki, bu da qısa yükləmə müddətinə, həmçinin yüksək internet sürəti tələb edən onlayn xidmətlərdən və platformalardan yararlanmağa imkan verir.

Qiymət dəyişikliyinə gəlincə, xidmət istifadəçiləri 3-4 qat sürət tariflərinə keçirilir və köhnə tariflərlə müqayisədə hər mbit/s sürət üçün 2 dəfə az (60 faizədək daha az) ödəniş edirlər.

Belə ki, əvvəl 4 mbit/s internet tarifinin aylıq abunə haqqı 10 AZN təşkil edirdisə, dəyişiklikdən sonra 15 mbit/s internet tarifinin aylıq ödənişi 15 AZN-dir. Digər 10 mbit/s internet tarifinin də aylıq abunə haqqı 12,5 AZN təşkil edirdisə, sözügedən tarif dəyişikliyi ilə 30 mbit/s internet paketinin aylıq abunə haqqı 18 AZN-dir.

Qeyd edək ki, genişzolaqlı GPON internet xidməti fiber-optik xətləri üzərindən təmin edilir. Bu texnologiya 100 mbit/s-ə qədər qoşulma sürəti, kəsintisiz rabitə və telefon xətlərindən asılılığın olmaması kimi üstünlüklərə malikdir.

Abunəçilərin diqqətinə bir daha çatdırılır ki, iyulun 6-da "www.aztelekom.az" saytı və qurumun sosial şəbəkələrdəki hesabları üzərindən sözügedən tarif dəyişikliyi ilə bağlı məlumat təqdim olunub.

# “Məhkəmə qərarı olsa da, “MALİBO” MMC evimizi təhvil vermir”

**_Bakı şəhəri Salatın Əsgərova küçəsi, 106 ünvanda ikiotaqlı, sahəsi 52 kv.m olan mənzildə daimi pasport qeydiyyatında yaşayan ailə bu gün evsiz qalıb. Həmin evdə dörd nəsil yaşayan ailə birdən-birə mənzillərindən çıxarılaraq, küçələrdə qalmağa məcbur edilib. Hara müraciət etsələr də, şikayətlərinə məhəl qoyan tapılmır. Əslində, məhkəmələr bu ailənin haqqını tanıyıb. Şirkət isə məhkəmələrin ədalətli qərarını tanımaqdan imtina edir._**





## Şikayət

“Həftə içi” qəzetinə şikayət ərizəsi ilə müraciət edən, hazırda ahıl yaşında Bakı şəhəri, Pirşağı qəsəbəsində müvəqqəti məskunlaşan Əli Əliyev və onun həyat yoldaşı Tamilla Əliyeva bütün dövlət hüquq-mühafizə, məhkəmə orqanlarına edilən müraciətlərə baxmayaraq, pozulmuş hüquqlarını bərpa edə bilməyiblər. Buna görə də Əliyevlər ailəsi həm evlərinin əllərindən alınmasına görə, həm də ailə başçısı Əli Əliyevin sağlıq durumunun ağırlaşaraq yataq xəstəsi olması üzündən hədsiz üzüntü və həyəcan içində yaşayır.

Nəhayət, şikayət ərizəsi ilə redaksiyamıza müraciət edən Əli Əliyevin həyat yoldaşı Tamilla Əliyeva Prezidentin “Problemlərinizi deyin...” çağırışına güvənərək, dövlət başçısına üz tutduğunu bildirib.

T.Əliyeva deyir ki, yoldaşı ağır xəstəlikdən əziyyət çəkir və bu gün öz ata-baba yurdundan çıxarılmasına, haqqını bərpa edə bilməməsinə görə xəstəliyi daha da ağırlaşıb. Bildirir ki, 2018-ci ilin yanvarında İmişli rayonundan sabiq millət vəkili Əsabil Qasımova məxsus və qardaşı Vüqar Qasımov tərəfindən idarə olunan “MALİBO” MMC şirkəti ərazidə “Pilot layihə” adı altında köhnə evlərin yerində hündürmərtəbəli evlər tikiləcəyini deyərək, sakinləri ərazidən köçürüblər.

Sakinlərlə danışıqları şirkət adından Nicat Sadıqov aparıb.

2018-ci ilin 25 mayında “MALİBO” MMC ilə aralarında bağlanan müqaviləyə görə, göstərilən ünvanda 10-cu blok, 9-cu mərtəbədə Əliyevlərə məxsus 52 kv.m ikiotaqlı köhnə mənzilin əvəzinə, onlara təmirsiz 60 kv.m yeni mənzil veriləcəyi barədə sövdələşmə olub. Şirkət evi 24 aya təhvil vermədikləri təqdirdə, hər ay Əliyevlərə 400 manat kirayəhaqqı ödəyəcəklərini müqavilədə qeyd ediblər.

Razılığa əsasən şirkət evi söküb. Daha sonra MALİBO-nun rəhbərləri Əliyevlərə verdikləri müqaviləni məhkəmələr yolu ilə ləğv etməyə və ailəni mənzilsiz qoymağa çalışıblar.

T.Əliyeva deyir ki, 4 il müddətində şirkətlə məhkəmə çəkişmələri olub.

Üstəlik şirkət ailəyə müvəqqəti narahatlığa görə heç bir kirayə haqqı ödəməyib. Əliyevlərin mənzillərini geri almaq idiası ilə baş vurduğu Nəsimi rayon məhkəməsi, Bakı Apelyasiya və Ali Məhkəməsi “Malibo” MMC ilə Əliyevlər arasında bağlanmış 25.05.2018 tarixli 126 saylı müqaviləni etibarlı hesab edərək, onlara tikiləcək binadan mənzilin verilməsi barədə Qərar qəbul edib.

T.Əliyeva bildirib ki, nəhayət, mənzillərinin haqqını almaq üçün 2022-ci ilin aprel ayında Ali Məhkəmənin qərarını əsas tutaraq, “MALİBO” MMC-nin ofisinə üz tutublar.

Onlar şirkətin meneceri Nicat Sadıqova məhkəmənin qərarını təqdim edib, nəhayət, mənzillərinin onlara təhvil verilməsini istəyiblər.

“Nicat Sadıqov bizə bildirdi ki, şirkətin rəhbərləri Əsabil və Vüqar Qasımov qardaşlarının tapşırığına əsasən, bizə nə mənzil, nə də kirayəhaqqı vermədilər. Məhkəmənin qərarı onlar üçün əsas deyil, hara istəyirsiniz, şikayət edin”.

Beləcə, çarəsiz nə edəcəklərini bilməyən Əli Əliyev, xanımı Tamilla Əliyeva ölkə başçısı İlham Əliyevdən kömək istəyirlər. Səslərini dövlət başçısına çatdırmaq üçün mediaya üz tutublar.

“Cənab Prezident!

Xahiş edirik, haqqımızı qoruyun. Ali Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduğu halda, şirkət rəhbərliyi qərarı icra etmir!

Bizim ailənin mənzillə təmin olunmasında və kirayə haqqı ödənilməsində köməklik göstərməyinizi Sizdən xahiş edirəm”.

*✍ Tahirə Qafarlı*

***P.S. Şikayətlə bağlı qarşı tərəflə dəfələrlə əlaqə yaratmaq istəsək də, zənglərimiziz cavabsız qaldı. Bununla belə, səsləndirilən iddialarla bağlı qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.***

## HƏFTƏ REYTİNQ

### Həftənin QƏLƏBƏSİ



“Qarabağ” Çempionlar Liqasının pley-off mərhələsinə yüksəlib. Azərbaycan çempionu buna Macarıstan “Ferensvaroş”unu qitənin ən nüfuzlu klub turnirindən kənarlaşdırmaqla nail olub. Ötən həftə III təsnifat mərhələsinin Bakıdakı ilk görüşündə 1:1 hesablı heç-heçə ilə kifayətlənən Ağdam klubu cütün taleyini səfərdə həll edib. Qurban Qurbanovun yetirmələri Budapeştdə səfərdən qələbə ilə ayrılıb - 3:1.

### Həftənin CAVABI



“Moskva Ermənistanın Baş naziri Nikol Paşinyanın Rusiyanın Qarabağdakı sülhməramlı missiyasının fəaliyyətinin detallarını dəqiqləşdirməklə bağlı təkliflərini hələ görməyib”. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. “Bu suala cavab vermək mənim üçün çətindir. Çünki biz Ermənistanın Baş nazirinin Rusiyanın Qarabağdakı sülhməramlı əməliyyatı kontekstində müzakirəyə çıxarmaq istədiyi konkret təklifləri görməmişik”, - deyə o əlavə edib.

### Həftənin ŞÜBHƏLİSİ



Federal Təhqiqatlar Bürosu (FTB) ABŞ-ın sabiq Prezidenti Donald Trampın Floridada yerləşən “Mar-a-Laqo” malikanəsində axtarış aparıb. Bu barədə “Reuters” məlumat yayıb. Bildirilib ki, o, bunu 2024-cü ildə keçiriləcək prezident seçkilərində iştirakı ilə əlaqələndirib. “The New York Times” yazır ki, FTB əməkdaşları Trampın mülkündə keçirilən əməliyyat zamanı onun dövlət başçısı postunu tərk edərkən Ağ Evdən götürdüyü sənədləri axtara bilər.

### Həftənin VİRUSU



Çin və Sinqapur alimləri insanlara və heyvanlara keçə bilən yeni henipavirus növünü aşkar ediblər. Bu barədə Çinin “Paper” informasiya portalı məlumat yayıb. Bildirilib ki, virusa “Lanye” adı verilib. Hazırda bu virusa ən azı 35 nəfər yoluxub. Onlarda hərarət, yorğunluq, öskürək, iştahsızlıq, əzələ ağrısı, ürəkbulanma və digər simptomlar müşahidə olunub. Hazırda henipavirusa qarşı peyvənd yoxdur.

### Həftənin RƏİSİ



Şəmkir Rayon Polis Şöbəsinin Kür qəsəbəsinin bölməsinin rəisi ağır qəza törədib. Bölmə rəisi, polis polkovniki Ədalət Sadıqov idarə etdiyi “KİA” markalı avtomobillə Tovuz rayonu istiqamətində hərəkətdə olarkən 1996-cı il təvəllüdlü Samir Sadıqovu vurub. Nəticədə rayonun Aşağı Quşçu kənd sakini, 26 yaşlı gənc şəxs xəstəxanaya aparılarkən yolda ölüb. Bildirilir ki, hadisə Bakı-Qazax magistralında piyada keçidinin olmadığı yerdə baş verib. Faktla bağlı araşdırma aparılır.

### Həftənin TƏLƏBƏSİ



I ixtisas qrupu üzrə açıqlanan imtahan nəticələrində ən yüksək bal toplamış məzunlardan biri də Əlizadə Nihatdır. Nihat I qrup görmə məhdudiyyətli şagirddir. O, Sağlamlıq İmkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika İnternat Məktəbində təhsil alıb. Nihat 596 bal toplayıb. O, fizika fənnindən 27 test tapşırığına doğru cavab yazıb.

*✍ Azad Əliyev*

# “Nar” şəhid övladları üçün təşkil olunan “YAŞAT” Düşərgəsinə dəstək oldu




**“Nar” “YAŞAT” Fondunun və “ASAN Könüllüləri” Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən ikinci “YAŞAT” düşərgəsinə qatılıb.**

“Nar”ın da dəstəkçilərindən olduğu layihənin əsas məqsədi şəhid yadigarlarının gələcəyinə töhfə vermək, onların cəmiyyətə inteqrasiyasına kömək etməkdir. Mobil operator düşərgənin 4-cü həftəsində uşaqlar üçün mobil rabitə ilə bağlı interaktiv təlim təşkil edib. “Nar”ın İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov tərəfindən keçirilən təlimdən sonra uşaqlar müzakirəyə qoşulub və bu sahə ilə bağlı onların sualları cavablandırılıb.

Şəhid övladlarına dəstəyin vacibliyini diqqətə çatdıran Əziz Axundov: “”Nar” olaraq bizim üçün xüsusi əhəmiyyətə malik olan bu layihənin bir parçası olmaqdan qürur duyur, uşaqların düşərgə zamanı əldə etdikləri təcrübələrin onların şəxsi inkişafına böyük töhfə verəcəyinə inanırıq”, - deyə qeyd edib.

“Nar” haqqında:

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Moskvada Müslüm Maqomayevin 80 illiyi qeyd olunacaq



**Oktyabrın 29-da Moskvada “Crocus City Hall”da SSRİ və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevin anadan olmasının 80 illiyinə həsr olunan konsert keçiriləcək.**

Konsert proqramında Rusiya estradasının və operasının ulduzları iştirak edəcəklər. Konsertdə M.Maqomayevin repertuarından mahnı və ariyalar səsləndiriləcək. Qeyd edək ki, “Crocus City Hall”un ikinci mərtəbəsinin foyesində Müslüm Maqomayevin xatirəsinə həsr olunan muzey var. Muzeyi ziyarət edəcək tamaşaçılar görkəmli ifaçının şəxsi əşyalarını, onun çəkdiyi rəsmləri, ailə arxivindən fotoşəkilləri və musiqi karyerası ərzində aldığı çoxsaylı beynəlxalq mükafatları görmək imkanı əldə edəcəklər.

# “Georg-Büchner 2022” mükafatı türk yazıçıya veriləcək

**Almaniyanın və almandilli ölkələrin ən nüfuzlu ədəbiyyat mükafatı olan “Georg-Büchner 2022” Almaniyada yaşayan türk əsilli yazıçı, teatr aktrisası və rejissoru Emine Sevgi Özdamara veriləcək.** Hafta.az Türkiyə KİV-lərinə istinadla xəbər verir ki, sözügedən mükafat yazıçıya noyabrın 5-də Darmstadtda keçirilən təqdimetmə mərasimində təqdim ediləcək. Qeyd edək ki, “Georg-Büchmer”in mükafat fondu 50 min avrodur.

## GÜNÜN FOTOSU




**Ermənilər Qarabağdan apardıqları torpağı hərraca çıxardı**

“

# Londondakı səfirliyimizə hücumun pərdəarxası

**Tural İrfan,**
İlahiyyatçı

Londonda o hadisəni törədən Şiraziçilərin Azərbaycanda nümayəndəsi var.

▸▸ Səh. 5

## STATİSTİKA



**■ Bu ilin yanvar-iyun aylarında Bakıda ticarət dövriyyəsinin həcmi ötən ilin yanvar-iyun ayları ilə müqayisədə 4,6 faiz artaraq 13 milyard 5,5 milyon manat təşkil edib.**

Ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,1 faiz artaraq 7 milyard 779,5 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 7,5 faiz azalaraq 5 milyard 226 milyon manata bərabər olub.



▸▸ Səh. 7

# Valideynlərin məktəb dərdi